48_27 IYUl-QARA.qxd 12/18/2025 10:34 PM Page 1

UNİKAL

№48 (2278) 19 dekabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Öncə Mehdiyev, sonra Abbasov - növbədə kim(lər) var?



Səh.8

# Sabiq nazirə 70 illiyində “vergi borcu hədiyyəsi”

*Qərbi Kaspi Universitetinin dövlət qarşısında vergi borcu son iki ayda 5 dəfə artıb. Bu barədə kommersiya qurumlarının dövlət reyestrindən məlum olub. Məlumata görə, oktyabrdan bəri özəl təhsil müəssisəsinin dövlətə borcu 80 min manatdan çox artıb. Belə ki, cari ilin oktyabr ayında universitetin düşdüyü borcun miqdarı 17 791.13 manat təşkil edib. “İqtisadiyyat.az” xəbər verib ki, kommersiya qurumlarının dövlət reyestri məlumatlarına əsasən, hazırda ali məktəbin Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə olan borcunun miqdarı 98 240.52 manata yüksəlib. Qeyd edək ki, Qərbi Kaspi Universiteti 1991-ci ildə yaradılıb. İlk adı Qərb Universiteti olub və Azərbaycanın ilk...*

Səh.5

## “İnsanlar mərhələli şəkildə israfçılıqdan imtina etməlidir”



*Milli Məclisin deputatı Ceyhun Məmmədov ”Unikal”a müsahibə verib. O, yenidən gündəmə gələn toylardakı israfçılıq məsələsindən, gələcəkdə toyların tənzimlənməsi ilə bağlı qanunvericiliyə hansısa dəyişikliklərin edilə biləcəyindən, insanların kredit götürərək toy etməsindən və dəbdəbəli yas...*

Səh.4

## AQTA-dan Yeni il hədiyyə qutuları ilə bağlı müraciət



*Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Yeni il hədiyyə qutularının satışının artması ilə əlaqədar istehlakçılara müraciət edib. AQTA-dan “Unikal”a daxil olan müraciətdə bildirilir ki, uşaqlar üçün şirniyyatla dolu hədiyyə qutuları yalnız mağaza, yarmarka və digər rəsmi satış yerlərindən alınmalıdır.*

Səh.12

## "Dezinformasiya dalğasının miqyası genişlənir" - Əhməd İsmayılov



*Dezinformasiyaya qarşı dayanıqlı mübarizə modelləri ölkələrin media ekosistemi üçün strateji əhəmiyyət kəsb edir. Yalan məlumatlar, təxribat məqsədi ilə yayılan xəbərlər tarixin bütün dövrlərində insanların kütləvi şüuruna təsir göstərən ciddi amil kimi dəyərləndirilsə də, bu, son zamanlar ölkələrin...*

Səh.5

# Xatirə Yeni il şənliyi üçün Xankəndinin yerinə, Moskvanı seçdi? - Açıqlama

***Müğənni Xatirə İslamın 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Xankəndidə keçiriləcək tədbirdə iştirakdan imtina etdiyi iddia olunur.***

"Unikal" xəbər verir ki, "Gununsesi.info"nun iddiasına görə, müğənni əvvəlcə konsertin təşkilatçıları ilə danışığında tədbirdə iştirak etməyə razılaşsa da, sonradan qərarını dəyişib. Xatirə İslamın Rusiyanın paytaxtı Moskvada təşkil olunacaq Yeni İl şənliyində daha yüksək qonorar təklifini qəbul etdiyi üçün Xankəndi şəhərində oxumaqdan imtina etdiyi bildirilib.

"Modern.az"ın iddiasına görə isə, müğənni Xankəndidəki tədbirdə iştirak etmək üçün əvvəlcə 6 min manat qonorar tələb edib, daha sonra bu məbləğ 2500 manatla razılaşdırılıb. Tərəflər arasında ilkin razılaşma əldə olunub və müğənniyə beh də verilib. Bir müddət sonra Xatirə İslamın behi geri qaytardığı qeyd olunur.

Sözügedən iddialarla bağlı Xatirə İslam sosial media hesabında açıqlama yayıb. O bildirib ki, Yeni il günü Bakıda olacaq: "Mən çox zaman haqqımda yayılan xəbərlərə münasibət bildirmirəm. Bu pis və ya yaxşı xəbər ola bilər. Xəbərin başlığıdan bilirəm ki, bu xəbər hansı niyyətlə yazılıb. Mən onları Allaha həvalə edirəm. Bu gün də qarşıma bəzi xəbərlər çıxdı. Demək istəyirəm ki, bunlar gerçək deyil. Mən yeni il günü Bakıda olacağam".

Xatırladaq ki, Xatirə İslam daha əvvəl Xankəndili olduğunu vurğulayıb. O, Xankəndidə keçirilən tədbirlərə dəvət



edilməməsindən dəfələrlə şikayət edib.

Qeyd edək ki, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Xankəndi şəhərində bayram tədbirləri keçiriləcək. Bayram proqramı çərçivəsində şəhərdə "Qış nağılı" adlı yarmarka təşkil olunacaq.

Eyni zamanda Xankəndidə geniş konsert proqramının da baş tutacağı bildirilir. Tədbirlər şəhərin mərkəzində yerləşən Zəfər meydanında keçiriləcək.

Bu, Xankəndidə təşkil olunan sayca ikinci Yeni il tədbiridir. Bayram proqramına hazırlıqların artıq yekunlaşmaq üzrə olduğu bildirilir. Məlumata görə, tədbirdə tanınmış sənətçilərin iştirakı nəzərdə tutulub.

# "Əsəbdən ölürəm, utanmırlar, "qızarmırlar"" - Niyaməddin Musayev



***Xalq artisti Niyaməddin Musayev "Elişko" ləqəbi ilə tanınan aktyor Elşən Orucovun paylaşdığı video ilə bağlı açıqlama verib.***

Müğənni bildirib ki, yayılan görüntülər onun məlumatı və razılığı olmadan paylaşılıb. N.Musayev qeyd edib ki, videoda iddia olunduğu kimi "Locco" mahnısını oxumayıb və ya zümzümə etməyib. Onun sözlərinə görə, həmin ifadə sonradan montaj edilib və sanki özü ifa edibmiş kimi təqdim olunub: "Bu, Avropa mahnısıdır. Mən ümumiyyətlə onun nə olduğunu bilmirdim. Sonradan dedilər ki, guya mən oxumuşam. Aparıcı sadəcə 'Locco' sözünü deməyimi xahiş etdi, mən də dedim və mövzu bağlandı. Mahnının mənasını da bilmirəm, heç vaxt oxumamışam".

Xalq artisti vurğulayıb ki, bütün bunlar reytinq qazanmaq məqsədi daşıyır: "Özlərindən süni mövzu yaradıblar. Saytlarda yayılan xəbərlərdən də xəbərim olmayıb. Bir dəfə verilişə getmək səhv imiş. Bundan sonra televiziya proqramlarına qatılmağı düşünmürəm. Belə hallar yolverilməzdir".

Niyaməddin Musayev baş verənləri sənətinə və şəxsiyyətinə hörmətsizlik kimi qiymətləndirib:"Xalqı aldatmaq olmaz. Bu cür 'zarafatlar' mənə yaraşmaz. Cəmiyyət içində nüfuzdan salmaq cəhdidir. Tənqid edənlər də haqlıdır".

Sənətçi əlavə edib ki, verilişə dəvət olunarkən iştirakçıların onun xatirinə gələcəyi bildirilib: "Xahiş etdilər ki, gəlim. Amma sonradan belə düşünülməmiş addımlar atıldı. İlk dəfə idi həmin verilişi görürdüm. Gündəmə gəlmək üçün bu cür üsullara əl atırlar. Bu, sənətimə, şəxsiyyətimə hörmətsiz yanaşmaqdır".

Xalq artisti bir daha vurğulayıb ki, yayılan videodan qətiyyən xəbəri olmayıb və "Locco" mahnısını ifa etməyib.

Xatırladaq ki, Elşən Orucov Xalq artisti Niyaməddin Musayevi məşhur "Locco" mahnısını səsləndirməyə təşviq edib. Sözügedən görüntülər qısa zamanda sosial şəbəkələrdə geniş yayılmışdı. Paylaşım isə izləyicilər tərəfindən maraqla qarşılanmışdı.



## Səidə buna görə efirə çıxmır

***Müğənni Səidə Sultan uzun müddətdir efirə çıxmamasına aydınlıq gətirib.***

İfaçı verilişlərdəki vəziyyətdən narazı olduğunu bu səbəbdən yeni mahnılarına vaxt ayırdığını bildirib:

"Artıq ortalıqda yoxam, kənardan izləyirəm. Bir o qədər də xoş təəssürat almıram. Hamı sanki "mən də buradayam" deməyə çalışır. Müğənnilər özlərini elə efir acı kimi aparırlar kig Nə olub? Ona görə də efirə çıxmamaq qərarı almışam. İşim mahnıdırsa, onu təqdim edirəm".

## "Allahım, onları sənə həvalə edirəm" - Günel Zeynalova

***Müğənni Günel Zeynalova qocalar evində yaşlı kişinin əlcək taxılaraq müxtəlif işgəncələrə məruz qalmasına münasibət bildirib.***



Bu barədə ifaçı sosial media hesabında yazıb.

"Səhər-səhər əsəblərim pozuldu. Allahım, belə insanları sənə həvalə edirəm. Bu vicdansız məxluqları sən cəzalandır. Əgər bu dünyada ədalət varsa, qanun qarşısında cavab versinlər. O yaşlı insan bizim atamız, babamız ola bilərdi" deyə, Günel bildirib.

## Şəbnəm 400 nəfərlik məclis keçirəcək

***Müğənni Şəbnəm Tovuzlu özünə təmtəraqlı doğum günü partisi edəcək.***



Sənətçi bu barədə danışıb. Dekabrın 19-da baş tutacaq gecəyə Xalq artistləri Alim Qasımov və Röya Ayxan da dəvət edilib: "Mən ad günümü qeyd etməyi sevirəm. Cəmi bir dəfə etmişəm, o da ki, 9 il bundan əvvəl. 400 nəfərə yaxın qonaq dəvət etmişəm. Hamısı da sənət dostlarımdır".



# Deputatdan maaşların ayda iki dəfə verilməsi ilə bağlı açıqlama

***Əmək Məcəlləsinə təklif olunan dəyişiklikdə aylıq əməkhaqlarının iki dəfə verilməsi nəzərdə tutulur. Layihəyə əsasən, əməkhaqqı işçilərə ayda bir dəfədən az olmayaraq verilməlidir. Tərəflərin qarşılıqlı razılığı ilə aylıq əməkhaqqı iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilə bilər.***

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a açıqlamasında bildirib ki, Əmək Məcəlləsinə edilən dəyişikliklərə əsasən, əməkhaqqının bir dəfədən az olmamaq şərti ilə verilməsi nəzərdə tutulur.

Onun sözlərinə görə, yeni dəyişikliklərin qəbul edilməsindən sonra bir dəfədən az olmamaq və 16 gün fasilə ilə əməkhaqqının verilməsi həyata keçiriləcək: "Bu həm də o anlama gəlir ki, işəgötürən və işçi razılaşmaqla ayda iki dəfə əməkhaqqının verilməsini həyata keçirə biləcək. Burada əsas şərt məhz işəgötürən və işçinin razılığıdır. Yeni dəyişiklikdən sonra işəgötürən işçi ilə razılaşmaqla əməkhaqqının bir deyil, iki dəfə ödənilməsini həyata keçirə bilər. Bu da əməkhaqqının ayda 2 dəfə ödənilməsinə imkan yaradar. Əməkhaqqının ödənilməsində əsas şərt işəgötürən və işçinin razılığıdır. Bu zaman vergi ödənişləri hesabatı praktik olaraq əvvəlki qaydada həyata keçirilir. Vergilərin hesablanması, hesablanmış vergilərlə bağlı hesabatın təqdim olunması prosedurları Vergilər Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçiriləcək", - deyə deputat vurğulayıb.

***Anar Kəlbiyev***

# Öncə Mehdiyev, sonra Abbasov - növbədə kim(lər) var?

## Xəyanətkar şəbəkə ətrafında həlqə daralır: yeni səs-küylü həbslər sürpriz olmayacaq! - ŞOK TƏFƏRRÜATLAR

***Yola salmaq üzrə olduğumuz həftə Baş nazirin sabiq birinci müavini Abbas Abbasovun axtarışa verildiyi barədə məlumat yayıldı. Belə ki, "Unikal"ın xəbərinə görə, Dövlət Təhlükəsizliyi Xidmətində Ramiz Mehdiyev və digərləri barəsində "dövlət hakimiyyətini ələ keçirməyə yönələn hərəkətlər" ittihamı ilə istintaqı aparılan cinayət işi üzrə növbəti qərar bəlli olub.***

Cinayət işi üzrə toplanmış materiallar əsasında, Azərbaycan Baş nazirinin sabiq birinci müavini, uzun illər Ramiz Mehdiyevin müdafiəsi nəticəsində məsuliyyətdən kənarda qalmış Abbas Abbasovun qeyd olunan cinayət işi üzrə istintaqa cəlb edilməsi barədə qərar qəbul edilib, ölkə hüdudlarından kənarda olmaqla istintaqdan yayındığı üçün barəsində axtarış elan edilib.

Qeyd edək ki, A.Abbasov 1992-ci ildən Azərbaycan Baş nazirinin birinci müavini vəzifəsində çalışıb. Bu müddət ərzində bir neçə dövlət komissiyasının sədri olmuşdur. 2006-cı ildə tutduğu vəzifədən azad edildikdən sonra Rusiyada yaşamağa başlayıb.

### Abbasovun təlaşı və qaçışı...

Abbas Abbasovun DTX tərəfindən istintaqa cəlb edilməsi və barəsində axtarış elan olunması xəbərinin üstündən çox keçməmiş onun Türkiyədən Rusiyaya yollandığı aydınlaşdı. "Gunsunesi.info"nun xəbərinə görə, sabiq vitse-premyer bir neçə ay öncə Türkiyədə yaşayan övladlarının yanına gedib və İstanbulda qalırmış. "Abbas Abbasov Türkiyə hökumətinin onu Azərbaycana təhvil verəcəyini düşündüyündən bir neçə gün əvvəl Moskvaya uçub. Bildirilib ki, o, cinayət məsuliyyətinə cəlb olunacağını əvvəlcədən bildiyi üçün Türkiyəni təcili tərk edib. Məsələ ilə bağlı Abbas Abbasovun oğlu, sabiq deputat Aydın Abbasov isə telefon zənglərini və mesajları cavabsız qoyub"- xəbərdə deyilir.

Əslində sabiq vitse-premyerin "Mehdiyev işi" çərçivəsində cinayət məsuliyyətinə cəlb edilməsi təəccüb doğurmur. Məsələ burasındadır ki, 2006-cı ildə vəzifəsindən azad edilən və "İstiqlal" ordeni ilə təltif edilərək, eyni ilə "boz kardinal" kimi hörmətlə yola salınan Abbas Abbasov da Ramiz Mehdiyev kimi akademik fəaliyyətlə, bizneslə məşğul olmaq, yaxud ailə mühitində nəvə-nəticələrinə babalıq etmək əvəzinə siyasi iddialara düşmüşdü. 2013-cü ildə Rusiyada qurulan "Milyarderlər ittifaqı"na azərbaycanlı iş adamlarının cəlb edilməsi və Azərbaycanda siyasi konfiqurasiyanın yenidən formalaşdırılması istiqamətində sabiq vitse-premyerin bəzən gizli, bəzən aşkar cəhdləri barədə indiyədək çox yazılıb. O, sözügedən "ittifaqın" rəsmi təsisçilərindən biri olmaqdan



belə çəkinməyib. Üstəlik, baş nazir müavinliyindən uzaqlaşdırılandan bir müddət sonra A.Abbasov müxtəlif qanunsuz yollarla Rusiyadakı Azərbaycan diaspor strukturlarını ələ keçirərək öz təsir altına salmaq istiqamətində pozucu fəaliyyət aparıb (Bu yerdə qısa haşiyə çıxaq: təsadüfi deyil ki, Bakı ilə münasibətləri bilərəkdən və əsassız yerə, hansısa kirli məqsədlər naminə gərginləşdirən Rusiya dairələri bir müddətdir ki, bu ölkədə Azərbaycan diasporasının sağlam qüvvələrinə sözün həqiqi mənasında savaş açıb və onu ağlasığmaz üsullarla cəzalandırmaq yolunu tutub). A.Abbasov ötən müddət ərzində müxtəlif qanunsuz yollarla Rusiyada Azərbaycan diaspor strukturlarını ələ keçirib təsir altına salmaq istiqamətində pozucu fəaliyyət aparıb.

Yuxarıda sadalananlar fonunda onun BAŞQA PAYTAXTLARDA hazırlanmış çevriliş ssenarilərinin mühüm bir fiquru kimi diqqət mərkəzinə düşməsi və "Mehdiyev işi" ilə bağlı barəsində cinayət işi açılması sürpriz deyil.

### Baş nazir müavinliyindən qapıqululuğuna...

"Milyarderlər ittifaqı" layihəsi iflasa uğrayandan sonra Abbas Abbasovun ilk həmləsi Azərbaycanla əlaqələrini tamamilə kəsmək oldu. Başda deputat olmuş oğlu Aydın Abbasov dayanmaqla, ən yaxın adamlarını ölkədən çıxaran sabiq baş nazir müavini Azərbaycandakı gəlir mənbələrini də xaricə daşıdı. Bir müddət sonra isə onun qalmaqallı milyarder Telman İsmayılovun yanında işə düzəldiyi aydınlaşdı. Məlumatlara görə, o, hazırda müflis vəziyyətə düşmüş "AST Telman" ləqəbli İsmayılovun qonaqlarını qarşılayır, yola salır, bir sözlə, lakeylik edir, yerli KİV-lərin təbirincə desək, onun yavəri qismində çalışırdı. Bu, uzun illər baş nazir müavini işləmiş bir şəxs üçün kifayət qədər biabırçı sonluq idi.

Məlum hadisələrdən sonra Abbas Abbasov Azərbaycana bir dəfə də gəlməyib. O, erməniəsilli qaynanasının dəfnində belə iştirak etməmişdi.

Bunun səbəbi maraq doğurur. Görünür, "xain xoflu olar" məsəli yenə də yerinə düşmüşdü. Abbas Abbasov öz xəyanətkar əməllərinin ona qanunlar çərçivəsində baha başa gələcəyini yaxşı bildiyi üçün, belə görünür, ehtiyatı əldən vermək istəməyib.

Lakin ataların başqa bir məşhur məsəli də var: "Qorxunun əcələ faydası yoxdur".

O, çirkin və qanunsuz planlarına görə əvvəl-axır hüquqi məsuliyyət daşımalı idi, yəqin ki, daşıyacaq da!

Abbas Abbasov haqqında cinayət işinin açılması və axtarış elan edilməsi bu sadə, eyni zamanda gözlənilən həqiqətdən xəbər verir.

### Növbədə kimlər var?

Sabiq vitse-premyer ətrafında baş verənlər "Mehdiyev işi"nin qarşıdakı günlərdə daha da genişlənəcəyinin anonsu kimi də qiymətləndirilə bilər. İstər ölkə mediası, istər siyasi ekspertlər, istərsə də geniş ictimaiyyət şübhə eləmir ki, proses Mehdiyev və Abbasovla yekunlaşmır; köhnə məmur korpusunun bir çox aparıcı fiqurları məlum xəyanətkar şəbəkənin vintciyi, yaxud təkərciyi qismində çıxış edirlər. Yəqin ki, qarşıdakı dövrdə onların da cinayət məsuliyyətinə cəlb edildiyi barədə xəbərlər oxuyacağıq.

Unutmayaq ki, Ramiz Mehdiyevlə bağlı cinayət işi açıldıqdan və onun haqqında ev dustaqlığı qərarı çıxarıldıqdan sonra bu sensasiyalı qərarı şərh edən ekspertlər birmənalı şəkildə vurğulayırdılar ki, "boz kardinal" postundan getsə də, onun, eləcə də rəhbərlik etdiyi şəbəkənin həm hakimiyyətdə, həm də biznes sektorunda mövqeləri qalır. İstisna deyil ki, bu mövqe sahibləri tamamilə sıradan çıxarılacağından qorxaraq gizli hərəkətə keçmək yolu tutublar, lakin həmin planları zamanında ifşa edilib və məlum xəyanətkar şəbəkənin tam zərərsizləşdirilməsinə qərar verilib. Belədə Mehdiyevlə başlayan, Abbasovla davam edən prosesin digər "xoflu xainlər"in ifşa və cəzalandırılması ilə yeni mərhələyə qədəm qoyması tamamilə realdır.

Bircə qalır onların kim olduqlarını birlikdə öyrənmək!

Bunun üçün isə yəqin ki, çox gözləmək lazım gəlməyəcək...

***Sənan Mirzə***

48_27 IYUl-QARA.qxd 12/18/2025 10:38 PM Page 4



# Bakı onlara TRIPP çəkən deyil - İrəvan nəyi gözləyir?

***Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) - cari ilin avqustunda Vaşinqton sammitinin nəticələri üzrə həyata keçirilməsi barədə razılıq əldə olunmuş layihə olan Zəngəzur dəhlizinin bir hissəsidir. Bunu bir neçə gün öncə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyov Polşanın ”TVP World” telekanalına verdiyi müsahibəsində demişdi.***

Lakin görünən odur ki, region ölkəsi olaraq onun da lehinə olan bir layihədir, rəsmi Tehran həm TRIPP-in, həm də Zəngəzur dəhlizinin əleyhinədir. İrəvan bu barədə İranı razı saldığını desə də, Tehrandan yenidən baş qaldıran açıqlamalar bunun əksini iddia edir.

Belə ki, İran liderinin beynəlxalq məsələlər üzrə baş müşaviri Əli Əkbər Vilayəti Ermənistanın Tehrandakı səfiri Qriqor Akopyanla görüşündə bildirib ki, İran Donald Trampın Qafqaz planına qarşıdır, çünki bu plan İranın təhlükəsizliyinə ciddi təhdiddir: ”Trampın Qafqaz planının Zəngəzur dəhlizindən heç bir fərqi yoxdur və İran buna qəti şəkildə qarşıdır. Dəhliz NATO-nun İranın şimalında mövcudluğu İranın şimalı və Rusiyanın cənubu üçün ciddi təhlükəsizlik yaradır. Bu plan adı sadəcə dəyişdirilmiş və hazırda Amerika şirkətlərinin Ermənistana daxil olması ilə həyata keçirilən praktiki olaraq eyni layihədir”.



Vilayətinin sözlərinə görə, ABŞ iqtisadi fəaliyyət bəhanəsi ilə bölgəyə hərbi müdaxilə edir: ”Təcrübə göstərir ki, amerikalılar ilkin olaraq zahirən iqtisadi layihələrlə həssas bölgələrə nüfuz edir, lakin getdikcə onların mövcudluğu hərbi və təhlükəsizlik ölçüsünə qədər genişlənir. Amerikanın İran sərhədlərində istənilən formada mövcudluğunun açıq-aşkar təhlükəsizlik təsirləri var”.

İrəvanın vədlərinə baxmayaraq, İranın bu narahatlığı başadüşüləndir. Amma onların yenidən bu məsələyə qayıtması müttəfiq qonşusu olan Rusiya amili ilə bağlı ola bilər. Çünki Rusiya tərəfi bu məsələ ilə bağlı İrəvanla məsləhətləşmək istədiyini aşkar şəkildə bildirib. Bunu Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan da açıqlamışdı. Lakin o qeyd edib ki, hazırda Rusiyanın ”Tramp yolu” təşəbbüsündə mümkün iştirakı ilə bağlı heç bir müzakirə aparılmır.



Təbii ki, cənub qonşumuz bu məsələdə Rusiya faktorunu yox, özünün ABŞ-yə güvənməməyini iddia edir. Lakin İrandan olan politoloq Həsən Şirzadi “Orbeli 2025” beynəlxalq forumunda əbəs yerə qonşuların maraqlarından danışmayıb: ”Bizim siyasətimiz region ölkələri ilə dostluq və əməkdaşlığa əsaslanır və İran “3+3” formatına önəm verir. Ölkələr qonşularının maraqlarını nəzərə almalıdırlar - bu, davamlı sülh üçün ilkin şərtdir.

İran ABŞ-yə etibar etmir. Onlar İrana qarşı sanksiyalar tətbiq etdilər. Niyə onlara etibar etməliyik? Müdafiə Nazirliyinin adını Müharibə Nazirliyinə dəyişdilər, Venesuelanı təhdid etdilər.

Əgər ABŞ Cənubi Qafqaz regionu üçün yaxşı bir şey etmək istəyirsə, bu, əladır. Əgər onlar Ermənistana və Azərbaycana sülh yolunda kömək etsələr, bu da əladır.

Amma mən bu perspektivə o qədər də inanmıram. Onların TRIPP proqramı ilə bağlı planları nədir? Əgər bu, bir marşrutdursa, yollarımız və əlaqələrimiz yalnız Ermənistanla məhdudlaşmayacaqsa, onda heç bir problem yoxdur. Belə bir halda, həmin yol İran yolu ilə rəqabət aparacaq və bu, problem deyil. Biz buna hazırıq. Rəqabət hər şeydə yaxşıdır. Lakin, başa düşdüyüm qədəri ilə, ABŞ həmişə hərbi komponenti nəzərə alır.

Bizim üçün sərhədlərimizin təhlükəsizliyinin təmin edilməsində Amerika podratçılarının rolu qəbuledilməzdir. Əgər bu, iqtisadi layihədirsə, çox yaxşıdır. Amma onlar bunun sırf iqtisadi layihə olduğunu sübut etməlidirlər”.

İranın narahatlığı, Rusiyanın layihəyə can atması, Azərbaycanın da bu yolda praktik işlərə başlaması fonunda Avropa Birliyi də ABŞ, Azərbaycan və Türkiyə ilə TRIPP layihəsində mümkün iştirakla bağlı danışıqlara başlayıb: ”Avropa İttifaqının öz təklifləri var və Türkiyə və Azərbaycanla məsləhətləşmələri davam etdirir. Layihə yalnız bir dəmir yolu hissəsini əhatə etdiyi üçün ABŞ-nin iştirakı xüsusilə vacibdir”.



Xameneinin baş müşaviri Əli Əkbər Vilayəti ilə görüş zamanı susmağı üstün tutan Ermənistanın Tehrandakı səfiri Qriqor Akopyan isə daha sonra danışmağa cəsarət tapıb. O, Ermənistanın ”Tramp Yolu” layihəsində İranın həyati əhəmiyyətli maraqlarını nəzərə alındığını açıqlayıb: ”Blokadanın aradan qaldırılması nəticəsində Ermənistan Naxçıvan ərazisindən keçərək İran İslam Respublikası ilə dəmir yolu əlaqəsinə malik olacaq ki, bu da İrana Qara dəniz limanlarına birləşərək Gürcüstanla birbaşa dəmir yolu əlaqəsi qurmaq üçün misli görünməmiş bir fürsət yaradacaq. Öz növbəsində, İran da Ermənistan üçün Orta Asiya və Uzaq Şərq ölkələri ilə əlaqə qurmaq baxımından dəmir yolu tranzit marşrutuna çevriləcək”.

Region ölkələrindən əlavə ABŞ və Aİ-nin dəhlizə olan müstəsna marağı təəccüblü deyil. Təəccüblü olan odur ki, illərdir blokada şəraitindən danışan İrəvan bunun üçün praktiki addım atmır. Onlar hələ İranı razı salmaq, dəhliz-marşrut anlayışının fərqinə varmaq və bəlkə də yolun Ermənistandan keçən hissəsinin tikintisi üçün tranş ayrılmasını gözləməklə məşğuldurlar. İrəvan hazırda ən yüksək tribunalardan ”Tramp yolu”nun əhəmiyyətindən sadəcə danışmaqla kifayətlənir. Armenia-Azerbaijan peace deal only needs adjustments: PM Pashinyan | Daily Sabah

Ermənistanın baş naziri Nikol Paşinyan isə TRIPP-in tikintisinə 2026-cı ilin ikinci yarısında başlanacağını bildirib: ”İlin sonuna qədər bir plan hazırlanacaq və layihənin bütün detalları təsvir ediləcək və bu, 2026-cı ilin birinci yarısında təsdiqlənəcək”. 12 dekabrda verilən bu açıqlamada Paşinyan bəlkə də artıq ilin sonu olduğunun fərqinə varmayıb. Nəzərə alsaq ki, 2026-cı ildə Ermənistanda seçkilər planlaşdırılıb, onların deyilən müddətdə layihənin planını hazırlayıb, tikintisinə başlaya biləcəyini demək bir qədər çətindir. Bəs Paşinyan nəyi gözləyir? Bəlkə də yenidən seçilməyini...

Beləliklə, Azərbaycan öz ərazisində marşrutun reallaşması üçün tikinti işlərinə başlayıb. Bakı İrəvana da TRIPP çəkən deyil. Bunu illərdir dalana dirənən Ermənistan özü etməlidir. Həm də mümkün qədər Rusiyanı bu işdən uzaq tutmaq və İranı razı salmaqla.

Orta dəhlizin mühüm tərkib hissəsi kimi Avropa və Asiya arasında yükdaşımalarda mühüm marşrut kimi qiymətləndirilən Zəngəzur dəhlizi Şimal-Cənub dəhlizinin də əsas halqalarından birini təşkil edəcək. Bu, gec və ya tez reallaşacaq!

***Ağarza Elçinoğlu***




## PA-nın sektor müdiri: Müasir dövrdə informasiya ekosisteminə qarşı təhdidlər sürətlə artır

***İnformasiya təhlükəsizliyinə müdaxilə artıq milli təhlükəsizlik üçün birbaşa riskdir.***

APA-nın Ankaraya ezam olunmuş əməkdaşının verdiyi xəbərə görə, bu sözləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kommunikasiya siyasəti sektorunun müdiri Cavid Musayev Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə Ankarada keçirilən türk dövlətlərinin dezinformasiya ilə mübarizə forumunda çıxışında deyib.

Cavid Musayev bildirib ki, müasir dövrdə informasiya ekosisteminə qarşı təhdidlər sürətlə artır və geosiyasi proseslər fonunda kütləvi, o cümlədən kollektiv dezinformasiya kampaniyaları əsas risk faktorlarından birinə çevrilib.

O vurğulayıb ki, bu çağırışların vaxtında və məsuliyyətlə müzakirə olunması son dərəcə vacibdir: “Dünya dəyişir, təhdidlərin forması dəyişir, yanaşmalar və hüquqi çərçivələr yenilənir”.

Cavid Musayev qeyd edib ki, əvvəllər dövlətlərin təhlükəsizliyinə təhdidlər əsasən hərbi hücumlarla ifadə olunurdusa, sonrakı mərhələdə iqtisadi və maliyyə təzyiqləri ön plana çıxırdısa, hazırda dövlətlərin informasiya mühitinə müdaxilə ən ciddi təhlükələrdən biri hesab olunur.

Onun sözlərinə görə, informasiya təhlükəsizliyinə edilən müdaxilə artıq milli təhlükəsizlik üçün birbaşa risk yaradır.

Çıxışında hibrid hücumların xüsusi təhlükə kəsb etdiyini deyən Cavid Musayev bildirib ki, bu baxımdan hər bir dövlətin özünü müdafiə etmək hüququ son dərəcə vacibdir. O qeyd edib ki, informasiya təhlükəsizliyi dedikdə təkcə dövlət institutlarının deyil, eyni zamanda, hər bir vətəndaşın informasiya təhlükəsizliyi nəzərə tutulur.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:39 PM Page 5



# İlham Əliyev onları təltif etdi - Sərəncam



***Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları təltif ediliblər.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncama görə, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif ediliblər:

**“Şərəf” ordeni ilə**
Məmmədova Gülçöhrə Hüseyn qızı
3-cü dərəcəli “Əmək” ordeni ilə
Ağayev Asəf Mirzə oğlu
Babayev Nəbi Miri oğlu
Əliyev Fəqan Qənbər oğlu
Hacıyev Müxlis Əhməd oğlu
Haqverdiyeva Tahirə Axi qızı
Mehtiyev Əlixan Qafar oğlu
Məmmədov Nurməmməd Yaşar oğlu
Şirinzadə İradə Nüsrət qızı

Eyni zamanda, Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Nağıyev Nizami Həsən oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

# Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları təltif edildi

***Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilib.***

“Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyi münasibətilə instiututun aşağıdakı əməkdaşları “Tərəqqi” medalı ilə təltif ediliblər:

Cavad-zadə Mir-Riad Mir-Məmməd oğlu
Eyvazov Təyyar Haşım oğlu
Əfəndiyev Akif Zahid oğlu
Meybəliyev Məmmədəli Tələt oğlu
Məmmədova Nailə Yusif qızı
Mirzə-zadə Valeh Ağasafa oğlu.

## ELAN

**Bakı şəhəri, Nizami rayonu, Q.Qarayev prospekti, ev 80, mənzil 119 ünvanında yaşayan Əhmədov Kamal Mərdan oğluna “Zəngi” liseyi tərəfindən verilmiş orta təhsilin bitirilməsi attestatı itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Baş nazirdən Bəylər Eyyubovla bağlı qərar

Nazirlər Kabineti ”Aeroportlarda (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan vəzifəli şəxslərinin Siyahısı”nın təsdiq edilməsi haqqında 29 oktyabr 2021-ci il tarixli qərarında dəyişiklik edib.

“Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Siyahıya Prezidentin Katibliyinin rəisi və onun müavini əlavə olunub. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi Bəylər Eyyubovdur.

# Leyla Əliyeva ÜST-nin Avropa üzrə Regional Ofisinin xüsusi nümayəndəsi ilə görüşüb

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə xüsusi nümayəndəsi Robb Butler ilə görüşüb.***



”Report” xəbər verir ki, görüşdə Leyla Əliyevaya iqlim və sağlamlıq sahəsində göstərdiyi səmərəli xidmətlərə, COP29 çərçivəsində fəal iştirakı və maarifləndirmə fəaliyyətinə, eləcə də ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının fəaliyyətinə verdiyi dəstəyə görə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi mükafatı təqdim olunub.

Söhbət zamanı IDEA İctimai Birliyi tərəfindən iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib, bu sahədə ÜST ilə Azərbaycan arasında mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Tərəflər Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və insan sağlamlığına potensial təsirləri barədə fikir mübadiləsi aparıb, bu istiqamətdə birgə təşəbbüslər və beynəlxalq çağırışların gücləndirilməsi imkanlarını, o cümlədən Azərbaycanın ÜST-nin ”Sağlam şəhərlər” şəbəkəsinə qoşulması perspektivlərini müzakirə ediblər.

Bununla yanaşı, təmiz havanın insan sağlamlığına təsiri, havanın çirklənməsinin azaldılması və bu sahədə maarifləndirmə tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunub.

# Nazir yeni sədrləri kollektivə təqdim etdi

***Peşə Təhsili üzrə Dövlət Agentliyinin yeni direktoru İlqar Bayramlı kollektivə təqdim edilib.***



”Unikal” xəbər verir ki, təqdimat mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev İlqar Bayramlını yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir peşə təhsilinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığında mühüm rol oynadığını qeyd edərək bu sahədə həyata keçirilən islahatlar və qarşıdakı dövr üçün əsas prioritetlər barədə danışıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin “Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamından irəli gələn vəzifələri xüsusi qeyd edib, həmçinin işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsinin və peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinin vacibliyini vurğulayıb. Tədbirdə çıxış edən İlqar Bayramlı göstərilən etimada görə təşəkkür edib, agentliyin fəaliyyətinin dövlət siyasətinə uyğun şəkildə daha da təkmilləşdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yeni sədri Nicat Məmmədli kollektivə təqdim edilib. Təqdimat mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Nicat Məmmədlini yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir fondun təhsil sahəsində həyata keçirilən islahatların dəstəklənməsində mühüm rol oynadığını vurğulayıb, prioritet istiqamətlər və əsas hədəflər barədə fikirlərini bölüşüb.

Emin Əmrullayev fondun fəaliyyətinin səmərəliliyinin artırılmasının, innovativ təşəbbüslərin dəstəklənməsinin və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edib. Tədbirdə çıxış edən Nicat Məmmədli ona göstərilən etimada görə təşəkkür edib, Təhsilin İnkişafı Fondunun fəaliyyətinin inkişafı istiqamətində məqsədyönlü və sistemli işlərin aparılacağını və bunun üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Vilayət Eyvazov yenidən Federasiya prezidenti seçildi

***Azərbaycan Atıcılıq Federasiyasının ümumi yığıncağı keçirilib.***



”Unikal” xəbər verir ki, Azərbaycan Atıcılıq Federasiyasının Nizamnaməsi səsvermə yolu ilə yeni redaksiyada qəbul olunub. Ardınca federasiyanın rəhbərliyinə seçkilər keçirilib.

Səsvermənin nəticələrinə əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov növbəti 4 il müddətinə yenidən Azərbaycan Atıcılıq Federasiyasının prezidenti seçilib. Federasiya prezidenti Vilayət Eyvazov çıxış edib, göstərilən etimada görə təşəkkürünü bildirib və federasiyanın qarşıdakı fəaliyyət planları barədə danışıb.

# DSX-nin döyüş bayrağının təsvirinə dəyişiklik edildi

***“Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri”ndə dəyişiklik edilib.***

“Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmanla “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri”ndə “Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağında - “Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələri 0000 (hərbi hissənin nömrəsi) saylı hərbi hissə” sözləri yazılmış yeni bənd əlavə edilir.



48_27 IYUI-QARA.qxd 12/18/2025 10:39 PM Page 6



# PA rəsmisi: Prezident İlham Əliyevin çıxışları informasiya müharibəsində həlledici rol oynayıb




***Bu gün informasiya təhlükəsizliyi məsələsi artıq milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilib və bu reallıq Qarabağ müharibəsi zamanı açıq şəkildə özünü göstərib.***

Bu sözləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kommunikasiya siyasəti sektorunun müdiri Cavid Musayev Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə Ankarada keçirilən türk dövlətlərinin dezinformasiya ilə mübarizə forumunda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycan dövləti informasiya təhlükəsizliyinin əhəmiyyətini və dezinformasiyaya qarşı mübarizənin vacibliyini öz təcrübəsində aydın şəkildə görüb. Beş il öncə işğal altında olan ərazilərin azad olunması zamanı ölkəmizə qarşı böyük dezinformasiya hücumları edilmişdi.

PA rəsmisi qeyd edib ki, Azərbaycan öz qapılarını xarici media nümayəndələri üçün açdı. Onun sözlərinə görə, bəzi media qurumları qərəzli mövqe tutsa da, onların nümayəndələri Azərbaycana gələrək reallığı yerində gördülər. Azərbaycan dövləti isə hər gün keçirilən mətbuat konfransları vasitəsilə xarici media nümayəndələrinə xronoloji və faktlara əsaslanan məlumatlar təqdim edib.

Çıxışda dövlət rəhbərliyinin roluna da toxunan PA-nın sektor müdiri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə şəxsən özü 30-dan artıq aparıcı beynəlxalq media qurumuna müsahibə verib. Bu müsahibələr BBC, CNN, "France 24", "Al Jazeera", "Al Arabia", TRT, ARD, "La Figaro" və digər nüfuzlu media platformalarını əhatə edib.

O vurğulayıb ki, nəticədə Azərbaycan informasiya müharibəsində son dərəcə effektiv mexanizm formalaşdırıb və bu prosesdə Türkiyə mediasının, eləcə də ümumilikdə Türk dünyası mediasının dəstəyi xüsusi əhəmiyyət kəsb edib. O, eyni zamanda yerli media resurslarının və jurnalistlərin fədakar fəaliyyətini də qeyd edib.

Bu nümunələrin xatırladılmasının əsas məqsədinin böhran dövrlərində informasiya təhlükəsizliyinə qarşı yarana biləcək təhdidləri və onlara qarşı mübarizə yollarını göstərmək olduğunu bildirən sektor müdiri Azərbaycan və Türkiyə arasında 2020-ci ildə yaradılan Birgə Media Platformasının əhəmiyyətini xüsusi vurğulayıb.

Onun sözlərinə görə, artıq beş ildən çoxdur ki, bu platforma çərçivəsində mühüm işlər görülür və əməkdaşlıq davamlı şəkildə genişlənir. PA rəsmisi dezinformasiyaya qarşı mübarizə və informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində platformanın daha da inkişaf etdirilməsi və effektivliyinin artırılması üzərində işlərin davam etdiyini bildirib.

O, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq üçün möhkəm əsasların mövcud olduğunu, ortaq tarix, mədəniyyət və kimliyin bu əməkdaşlığa strateji üstünlük verdiyini qeyd edib. O əlavə edib ki, son illər təşkilat çərçivəsində media və informasiya sahəsində mühüm addımlar atılıb. Qeyd olunub ki, Azərbaycan bu istiqamətdə ilk dəfə Türk Dövlətləri Təşkilatının media forumuna ev sahibliyi edib, daha sonra informasiya və media üzrə məsul şəxslərin toplantıları keçirilib. Bu tədbirlər dezinformasiyaya qarşı mübarizə və informasiya təhlükəsizliyinin gücləndirilməsi istiqamətində səylərin artırılmasının vacibliyini göstərir.

PA rəsmisi vurğulayıb ki, media savadlılığının yüksəldilməsi bu prosesin əsas tərkib hissəsidir. Onun sözlərinə görə, media savadlılığı yalnız informasiyanı oxumaqla məhdudlaşmır, eyni zamanda mənbələrin araşdırılması, məlumatların düzgünlüyünün yoxlanılması və manipulyasiya cəhdlərinin ayırd edilməsi bacarığını əhatə edir.

Xüsusilə gənclər arasında media savadlılığının artırılmasının vacibliyini qeyd edən sektor müdiri bildirib ki, Azərbaycan dövləti bu sahədə qanunvericilik təşəbbüsləri, institusional islahatlar və beynəlxalq əməkdaşlıq vasitəsilə ardıcıl addımlar atır.

Sonda bildirilib ki, bu gün Azərbaycan beynəlxalq media və informasiya tədbirlərinin mühüm mərkəzlərindən birinə çevrilib və Şuşada keçirilən Qlobal Media Forumları bu prosesin bariz nümunəsidir(APA).

# MDB dövlətlərinin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası keçirildi

***Dekabrın 18-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 74-cü iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, MDB Baş katibinin müavini, Avrasiya İqtisadi Komissiyasının Statistika Departamentinin direktor müavini, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri iştirak ediblər.



Şuranın iclasında "MDB Statistikasının İnkişafı" Layihəsinin gedişatı və bu Layihənin 2026-cı il üçün iş planı, Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsinin 2026-cı il üçün İş Proqramı, MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasına 2026-cı ildə sədrlik və Şuranın 75-ci iclası haqqında məsələlər müzakirə edilib, həmçinin MDB Üzv Dövlətlərinin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası haqqında kommünike qəbul olunub.



# Azərbaycan-Oman iqtisadi əməkdaşlığı müzakirə edildi

***Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Oman Sultanlığının iqtisadiyyat naziri Səid bin Məhəmməd bin Əhməd Əl Saqri ilə görüşüb, iqtisadi əlaqələrin möhkəmləndirilməsi imkanları nəzərdən keçirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, görüşdə iki ölkə arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli münasibətlərin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün mühüm zəmin yaratdığı qeyd edilib. Tərəflər birgə iqtisadi fəaliyyətin təşviqi istiqamətində hüquq-müqavilə bazasının gücləndirilməsinin, Azərbaycan-Oman Birbaşa İnvestisiya Fondunun, İnvestisiya üzrə İşçi Qrupunun və Azərbaycan-Oman Birgə Biznes Şurasının yaradılmasının önəmini vurğulayıblar.

Görüşdə bərpaolunan və ənənəvi enerji, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri dəyərləndirilib.

# İncəsənət kollecinə qabiliyyət imtahanı fənlərinin sayı azaldılıb

***Tam orta (11 illik) təhsil bazasında Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət kollecinin rəngkarlıq (sahələr üzrə), qrafika üzrə texnik, teatr dekor sənəti, dekorativ - tətbiqi sənət (sahələr üzrə) və dizayn (sahələr üzrə) ixtisasları üzrə qabiliyyət imtahanı fənlərinin sayı azaldılıb. Qeyd olunan ixtisasların daxil olduğu 1601 kodlu qabiliyyət imtahanı komissiyası üzrə qeydiyyatdan keçmiş abituriyentlər 2026-cı ildə yalnız rəsm fənnindən imtahan verəcəklər.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Heykəltəraşlıq ixtisasının daxil olduğu 1701 kodlu qabiliyyət imtahanı komissiyası üzrə fənlərin sayında dəyişiklik olmayıb. Abituriyentlər tam orta (11 illik) təhsil bazasında heykəltəraşlıq ixtisasına daxil olmaq üçün rəsm və yapma fənlərindən qabiliyyət imtahanı verəcəklər.

Təsviri sənət və memarlıq istiqamətlərinin ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları haqqında bütün məlumatlar "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Təsviri sənət/Memarlıq" adlı vəsaitdə nəşr ediləcək. Qabiliyyət imtahanlarına hazırlaşmaq və ətraflı məlumat almaq üçün DİM-in nəşrlərini və internet saytını izləmək tövsiyə olunur.

# Şıxlinskinin və Səfərov qardaşlarının növbəti məhkəməsi oldu

***Yekaterinburqda Uraldakı Azərbaycan diasporunun keçmiş rəhbəri Şahin Şıxlinski, onun oğlu və Səfərov qardaşları - Akif, Ayaz, Bəkir, Kamal və Məzahirə qarşı cinayət işi üzrə ilkin dinləmə keçirilib.***

"Unikal" xəbər verir ki, əsas məhkəmə prosesi 15 yanvar 2026-cı il tarixinə təyin edilib.

Məhkəmə prosesi münsiflər heyəti ilə keçiriləcək.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:40 PM Page 7



# Kərim Vəliyev Türkiyə generalının rəhbərlik etdiyi heyətlə görüşdü



***17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.***

MN-dən "Unikal"a verilən xəbərə görə, dekabrın 18-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

General-polkovnik K.Vəliyev Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyini qeyd edib. Hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının zəruriliyini bildirib.

Ordu generalı L.Ergün Bakıda iki gündür davam edən 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında icra olunan fəaliyyətlərin yeni imkanların formalaşmasında müsbət təsirindən danışıb, hərbi əlaqələrimizin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının cari vəziyyəti təhlil edilib, maraq doğuran məsələlər və perspektiv planlara dair geniş müzakirələr aparılıb.

# "Amnistiya mühüm siyasi və humanist addımdır" - Kamaləddin Qafarov



***"Ölkə Prezidenti cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürdüyü amnistiya təşəbbüsü Azərbaycan dövlətinin ümumbəşəri humanizm dəyərlərinə sadiqliyinin növbəti bariz təzahürüdür".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov səsləndirib. O, bildirib ki, müasir dünyada güclü dövlət anlayışı yalnız siyasi və hərbi imkanlarla deyil, həm də insan hüquqlarına, ləyaqətinə və sosial ədalətə göstərilən münasibətlə ölçülür. "Bu təşəbbüs göstərir ki, Azərbaycan hüquqi dövlət modelini formalaşdırarkən milli maraqlarla yanaşı, beynəlxalq humanitar dəyərləri də əsas prinsip kimi qəbul edir. Amnistiya qərarı ilə dövlətin cəmiyyətə verdiyi mesaj bundan ibarətdir ki, hüquq sistemi cəza mexanizmi olmaqla yanaşı, eyni zamanda insanı islah etməyə, ona ikinci şans verməyə xidmət etməlidir".

Millət vəkili vurğulayıb ki, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ardıcıl və sistemli şəkildə həyata keçirilir: "Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar real idarəetmə praktikası ilə tamamlanır, sosial yönümlü qərarlarla möhkəmləndirilir. Amnistiya təşəbbüsü bu baxımdan hüquqi mexanizmlərin insan taleyinə həssas münasibətinin nümunəsidir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət sübut edir ki, qanunun aliliyi ilə insan amili bir-birinə zidd deyil, əksinə, bir-birini tamamlayan anlayışlardır. Dövlət hüququ qoruyur, lakin onu vicdan və ədalət prinsipləri ilə icra edir. Xüsusilə Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş şəxslərə, şəhid ailələrinə, müharibə əlillərinə, eləcə də qadınlara, yaşlılara və yetkinlik yaşına çatmayanlara münasibətdə fərqləndirilmiş yanaşma ədalətin ən ali formasını ifadə edir. Bu yanaşma hüququn mexaniki tətbiqindən deyil, onun vicdanla icrasında ifadə olunan mahiyyətinin önə çəkilməsindən qaynaqlanır. Dövlət cəmiyyət qarşısında xüsusi xidmətləri olan şəxslərin taleyinə həssaslıqla yanaşaraq sosial ədalətin canlı nümunəsini ortaya qoyur. Bu amnistiya təşəbbüsü yalnız hüquqi akt deyil, həm də milli həmrəyliyi gücləndirən, cəmiyyətlə dövlət arasında mənəvi bağları möhkəmləndirən mühüm siyasi və humanist addımdır".

# "İnsanlar mərhələli şəkildə israfçılıqdan imtina etməlidir"

## Ceyhun Məmmədov: "Hamımız danışırıq, deyirik, amma tətbiq olunması məsələsinə gələndə çox təəssüf ki, insanlar bunu etmək istəmir"

***Milli Məclisin deputatı Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, yenidən gündəmə gələn toylardakı israfçılıq məsələsindən, gələcəkdə toyların tənzimlənməsi ilə bağlı qanunvericiliyə hansısa dəyişikliklərin ediləcəyindən, insanların kredit götürərək toy etməsindən və dəbdəbəli yas məclislərinin ləğvindən danışıb.***

***-Ceyhun müəllim, Milli Məclisin plenar iclasında deputat həmkarlarınız toylardakı israfçılıqdan danışdılar. Şadlıq evlərində süfrələrdə yeməklərin çox olması, dekorasiya və şou xərclərinin isə əndazəni aşdığı qeyd edildi. Ümumiyyətlə, bir neçə ildir toylardakı israfçılıq barədə danışılır. Sizcə, bunu tənzimləmək üçün hansı addımlar atılmalıdır?***

-Bu məsələ dəfələrlə müzakirə olunub. Toylardakı israfçılıq cəmiyyətdə ciddi narahatlıq doğuran məsələyə çevrilib. Getdikcə israfçılıq artır. Toylarda yalnız israfçılıq deyil, eyni zamanda yeməklərin keyfiyyəti və musiqinin səsi ilə bağlı da problemlər var. Bu kimi məqamlar hamını narahat edir. Belə ki, insanlar toyda dincəlmir, zövq ala bilmir. Yalnız narahatlıq keçirirlər. Bunu son vaxtlar müşahidə edirik. Burada müxtəlif modellər tətbiq oluna bilər. Biri odur ki, cəmiyyət özü bunu anlasın, bu prosesə getsin və bu məsələlərə son qoysun. Dünyanın müxtəlif ölkələrində bunu tətbiq edirlər. Yəni, inzibati yolla tənzimlənməni həyata keçirirlər. Məsələn, bəzi Orta Asiya respublikaları bunu edirlər. Belə olan halda insanlar bildirirlər ki, bu onların sosial həyatına müdaxilədir. Arzu olunan odur ki, insanların özü bunu dərk etsinlər və addım atsınlar. Siz toylarla bağlı kimi danışdırsanız, bu barədə söhbət etsəniz, hamı öz narazılığını bildirəcək. Düşünürəm ki, biz cəmiyyət olaraq özümüz bunu dərk edərək addımlar atmalıyıq. İnsanlar mərhələli şəkildə israfçılıqdan imtina etməlidirlər ki, cəmiyyətdə bu kimi hallaların aradan qaldırılmasına nail olaq.

***-Bəzi ölkələrdə bunun inzibati yolla tənzimləndiyini qeyd etdiniz. Gələcəkdə Azərbaycanda toyların tənzimlənməsi ilə bağlı qanunvericilikdə hansısa dəyişiklik ola bilərmi?***

-Bu aidiyyəti qurumlardan asılıdır. Bunun üçün müvafiq qurumlar və strukturlar tərəfindən qərar qəbul edilməlidir. Hazırda belə bir qanunun qəbul edilməsi gündəmdə deyil. Bununla yanaşı, insanların özlərinin bu istiqamətdə dəyişiklik etməsi ehtimalı çox azdır. Hələki bunu görmürük, məncə, bu proses çox çəkəcək. Burada hansısa qaydalar, normalar müəyyənləşdirilə bilər. Bu qaydalar vasitəsilə proses tənzimlənər və öz həllini tapa bilər. Gələcəyə doğru bu barədə nə isə düşünmək olar. Şadlıq evləri üçün müəyyən normalar, qaydalar müəyyənləşdirmək olar və onun əsasında bu proses irəli aparıla bilər. Amma hazırda belə məsələ gündəmdə deyil. Qanunvericilik məsələsi aidiyyəti strukturlara aid məsələdir. Hamımız danışırıq, deyirik, amma tətbiq olunması məsələsinə gələndə çox təəssüf ki, insanlar bunu etmək istəmir. Artıq insanların özü buna başlamalıdır.

***- Bəzən insanlar bir-birinin bəhsinə ən bahalı restoranlarda toy etmək istəyirlər və imkanları çatmayanda kredit götürürlər. Sonra bu kreditin ödənilməsində çətinlik olur və yeni qurulan ailədə söz-söhbətlər yaranır. Belə hallarla bağlı nə deyə bilərsiz?***

-Bu çox ciddi problemdir. Bir məsələni qeyd edim ki, dünyada çox ciddi su və ərzaq qıtlığı gözlənilir. Ölkəmizdə qiymətlərə təsir edən əsas səbəblərdən biri istehlakın çox olmasıdır. Həm israfçılıq, həm də insanların dolanışığı baxımından toyda bu qədər yeməyin, cürbəcür salatların masaya düzülməsinə ehtiyac yoxdur. Nə qədər qəribə səslənsə də, bu gün bəzi Avropa dövlətləri bunu tətbiq edirlər. Belə ki, onlar toylarda menyu tətbiqinə başlayıblar. Yəni, toylarda müəyyən tənzimləməni həyata keçiriblər. Gələcəkdə biz də bunu düşünə və həyata keçirmək barədə addımlar ata bilərik.

***- Toylarla yanaşı yasların tənzimlənməsi mümkündür?***

-Yaslar da eyni qaydadadır. Birinci insanlar özləri bunu dərk etməli, şüurlu səviyyədə buna getməlidirlər. Digər bir variant isə inzibati yolla müəyyən qaydaların normallaşmasıdır. Toya baxanda yaslarda bu proses başlayıb. Ümid edirik ki, bu proses davam edəcək və israfçılıq minimuma endiriləcək. Bunun heç bir dini əsası yoxdur. Heç bir dini əsası olmadığı üçün özümüz prosesin aktiv üzvü olub bu kimi hallara qarşı mübarizə aparmalıyıq.

***-Amma yaslarla bağlı belə fikirlər səsləndirilir ki, daha çox imkanlı şəxslər dəbdəbəli yas məclisləri təşkil edir...***

-Sizə deyim ki, belə deyil. Biz günahlandırırıq, amma burada bütün tərəflərin məsuliyyəti, günahı var. Məsuliyyəti bir tərəf yox, bütün tərəflər daşıyır. Mən qəti şəkildə bunu bölməyin əleyhinəyəm. Belə məclisləri edənlərin arasında kasıb da, varlı da var. Bunu hər iki tərəf edir.



**Anar Kəlbiyev**

# Sabiq nazirə 70 illiyində "vergi borcu hədiyyəsi"

## Hüseynqulu Bağırova məxsus universitetin borcu təkcə son iki ayda 5 dəfə artıbmış!

***Qərbi Kaspi Universitetinin dövlət qarşısında vergi borcu son iki ayda 5 dəfə artıb. Bu barədə kommersiya qurumlarının dövlət reyestrindən məlum olub.***

Məlumata görə, oktyabrdan bəri özəl təhsil müəssisəsinin dövlətə borcu 80 min manatdan çox artıb. Belə ki, cari ilin oktyabr ayında universitetin düşdüyü borcun miqdarı 17 791.13 manat təşkil edib.

"İqtisadiyyat.az" xəbər verib ki, kommersiya qurumlarının dövlət reyestri məlumatlarına əsasən, hazırda ali məktəbin Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə olan borcunun miqdarı 98 240.52 manata yüksəlib.



Qeyd edək ki, Qərbi Kaspi Universiteti 1991-ci ildə yaradılıb. İlk adı Qərb Universiteti olub və Azərbaycanın ilk qeyri-dövlət ali təhsil müəssisəsidir. 2017-ci ildə onun adı Qərbi Kaspi Universiteti olaraq dəyişdirilib. Universitetin Qəyyumlar Şurasının sədri sabiq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırovdur. Reyestrdə isə universitetin qanuni təmsilçisi Rəşad Hüseynqulu oğlu Bağırovdur.

Universitetin rəsmi saytındakı məqaləsində H.Bağırov özünə məxsus sözügedən təhsil ocağının hədəflərini belə açıqlayıb: "34 ildir universitetimiz fəaliyyətini yüksək səviyyədə davam etdirir. Bizim əldə etdiyimiz nailiyyətlər Qərbi Kaspi Universitetinin parlaq gələcəyinin göstəricisidir. Görüləcək işlərimiz təbii ki, çoxdur, biz qarşımıza qoyduğumuz inkişaf konsepsiyasına uyğun məqsədlərə doğru əzmlə irəliləyirik. Biz fəaliyyətimizi genişləndirməyə və əlaqələrimizi artırmağa davam edirik. Bütün istiqamətlər üzrə ümidverici müsbət dəyişikliklərə pozitiv yanaşırıq. Biz Qərbi Kaspi Universitetinin gələcəyinə nikbin baxırıq və bütün gələcək fəaliyyətimizdə davamlı uğurlar gözləyirik".

Bu arada "Unikal"ın əldə etdiyi məlumata görə, dekabrın 17-də H.Bağırov özünə ailə üzvlərinin, yaxınlarının və dostlarının iştirakı ilə ad günü keçirib. Üstəlik, bu ad günü sabiq nazir üçün xeyli əlamətdar olub. Belə ki, o, 70 yaşını qeyd edib.

Xatırladaq ki, 2001-ci ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri təyin olunan Bağırov, 2005-ci ildə Azərbaycan Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının da Prezidenti seçilib. O, 2015-ci il dekabr ayının 16-da "Şöhrət ordeni ilə təltif edilib.

Hüseynqulu Bağırov nazir postundan gedəndən sonra adı bir sıra qalmaqallarda hallanıb. Belə ki, onun ögey xalası oğlu Abbas Zeynalov sabiq nazir haqqında bəzi faktları mediaya açıqlayıb.

Zeynalovun sözlərinə görə, Hüseynqulu Bağırovun əsl adı Sonqulu olub, daha sonra o öz adını dəyişdirərək Hüseynqulu edib.

Zeynalov bildirib ki, onlar şərikli otel tikintisinə başlayıblar. Tikintiyə Bağırovun ögey xalası oğlu başçılıq etsə də, sabiq nazir daha sonra ondan təşkilatçılığı alıb və "mən sənin xərclədiyin 500 min dolları ödəyəcəm. İndi isə bu işi başqasına təhvil vermişəm. Ona görə də sən get" deyib.

Sabiq nazirin xalası oğlu onu da bildirib ki, onun Türkiyədə və Avropadakı biznesini xanımı Liana Bağırova idarə edir.

Sabiq nazir isə özü haqqında çıxan bütün ittihamlara cavab olaraq bildirib ki, deyilən hər şey yalandır.

H.Bağırova məxsus Qərbi Kaspi Universitetinin adı isə sonuncu dəfə bu günlərdə 2025-ci ildə keçirilən qəbul və buraxılış imtahanlarında qanunsuz texniki vasitələrdən istifadə halları ilə bağlı ittiham olunaraq cinayət məsuliyyətinə cəlb edilən təhsil eksperti Kamran Əsədovla bağlı qalmaqal sayəsində gündəmə gəlmişdi. Belə ki, 8 oktyabr 2025-ci il tarixində o, "Stanford Universitetinin açıqladığı dünyanın ən nüfuzlu alimlərinin 2 faizi" siyahısı ilə bağlı sosial mediada paylaşım edərək bəzi özəl universitetləri, o cümlədən Qərbi Kaspi Universitetini "formal əlaqələr" və "saxta akademik təmsilçilik"də ittiham etmişdi. Buna cavab olaraq universitet özünün rəsmi internet səhifəsində son dərəcə emosional və təhqiramiz açıqlama yayaraq K.Əsədovu "saxta ekspert", "alverçi", "köçürmə möhtəkiri" adlandırmışdı. Universitet iddia etmişdi ki, Kamran Əsədov vaxtilə orada çalışıb və işdən çıxarılıb. Kamran Əsədov isə bu iddianı təkzib edərək, universitetdən öz istəyi ilə ayrıldığını bildirmiş, məsələni məhkəməyə daşıyacağını açıqlamışdı.

Qeyd edək ki, Hüseynqulu Bağırov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi işləmiş Mircəfər Bağırovun yaxın qohumudur. O, 2018-ci il 21 apreldə vəzifədən gedib.

Keçmiş nazir hazırda biznesini idarə edir, hərdən isə səyahətə çıxır və alpinizmlə məşğul olur.

***Toğrul Əliyev***

# "Dezinformasiya dalğasının miqyası genişlənir" - Əhməd İsmayılov



***Dezinformasiyaya qarşı dayanıqlı mübarizə modelləri ölkələrin media ekosistemi üçün strateji əhəmiyyət kəsb edir. Yalan məlumatlar, təxribat məqsədi ilə yayılan xəbərlər tarixin bütün dövrlərində insanların kütləvi şüuruna təsir göstərən ciddi amil kimi dəyərləndirilsə də, bu, son zamanlar ölkələrin sosial-mədəni səviyyəsindən asılı olmayaraq, hər kəsin düşüncəsinə daha geniş miqyasda təsir göstərməyə başlayıb.***

"Unikal" xəbər verir ki, bu fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov dekabrın 18-də Ankara şəhərində keçirilən "Türk dövlətlərinin dezinformasiya ilə mübarizə forumu"nda çıxışı zamanı səsləndirib.

Ə.İsmayılov qeyd edib ki, bir zamanlar dezinformasiya dalğası yalnız siyasi məzmun daşıyır və ənənəvi medianın kontent manipulyasiyası vasitəsi ilə yayılırdısa, indi mənzərə tamamilə dəyişib: "İndi media manipulyasiyaları ilə yanaşı, texnoloji inkişafın gətirdiyi yeniliklər də yalan məlumatların sürətlə yayılmasına imkan yaradır. Bu baxımdan, istənilən ölkə məzmunundan asılı olmayaraq dezinformasiya dalğasının hədəfinə çevrilə bilər".

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun sözlərinə görə, Türk dövlətləri də belə sistemli informasiya təhdidlərinə məruz qalır. Qeyd edib ki, mürəkkəb coğrafiyalarda yerləşmiş türk ölkələrinin geopolitik fəallığı artdıqca dezinformasiya dalğasının da miqyası genişlənir. "Bu tendensiya bizim ümumi problemimizdir və onun həlli, cəmiyyətlərimizin müqavimətinin gücləndirilməsi hamımızın birgə səyindən, həmrəyliyindən birbaşa asılıdır", - deyə Ə. İsmayılov vurğulayıb.

Medianın İnkişafı Agentliyinin rəhbəri bildirib ki, Azərbaycanda dezinformasiya problemi ölkəmizin beynəlxalq nüfuzu artmaqda davam etdikcə özünü daha qabarıq şəkildə büruzə verir: "Xüsusilə, ölkəmizdə keçirilən böyük beynəlxalq tədbirlər zamanı müxtəlif qarayaxma kampaniyalarının şahidi oluruq. Bu kampaniyalar çaşqınlıq və qeyri-sabitlik səpmək üçün nəzərdə tutulur, çox vaxt bizim reputasiyamıza xələl gətirmək məqsədi daşıyan yalan hekayələr formasında özünü göstərir".

Bu kimi zərərli tendensiyaları aradan qaldırmaqda peşəkar medianın üzərinə ikiqat məsuliyyət düşdüyünü bildirən Ə.İsmayılov, hər bir ölkənin doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin möhkəmləndirilməsinin əsas məqsəd olduğunu deyib.

# "Ali təhsil müəssisələri rəqabətə hazır olmalıdırlar" - Nazir



***Gələcək kifayət qədər sərt, rəqabətli illər olacaq, qeyri-müəyyənliklər olacaq. Ali təhsil müəssisələri bu istiqamətdə rəqabətə hazır olmalıdırlar.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illik yubiley tədbirində söyləyib.

Nazir vurğulayıb ki, inkişafın əsas təməli rəqabətdir. Bu gün memarlıq və inşaat sahəsində təhsilin də 105 illiyi qeyd edilir. Ali təhsil müəssisələri dünyada rəqabət aparırlar. Azərbaycanın təhsil sistemi qapalı deyil. Digər vacib məqam əməkdaşlıqdır. Xüsusilə elm və təhsildə əməkdaşlıq olmalıdır. Başqa bir mühüm məsələ ondan ibarətdir ki, heç bir ali təhsil müəssisəsi özü-özlüyündə inkişaf edə bilməz. Təhsilə dövlətin dəstəyinin böyük olduğunu vurğulayan nazir özəl sektorun da bu əməkdaşlığa cəlb edilməsinin zəruriliyini bildirib. O, ali təhsil müəssisələrinin əməkdaşlığa açıq olduğunu diqqətə çatdırıb.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:40 PM Page 9



## Peşə Təhsili üzrə Dövlət Agentliyinə direktor təyin edildi



***Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin müdiri İlqar Bayramlı Peşə Təhsili üzrə Dövlət Agentliyinə direktor təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb.

Qeyd edək ki, İlqar Bayramlı 1992-1997-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsində ali təhsil alıb, universiteti fərqlənmə diplomu ilə bitirib. 1997-2001-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda iqtisadi-riyazi üsullar ixtisası üzrə aspirantura təhsili alıb. Bu dövrdə iqtisadi qərarların modelləşdirilməsi, statistik təhlil və riyazi əsaslandırma sahəsində dərin biliklər əldə edib.

Əmək fəaliyyətinə 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbində müəllim kimi başlayıb, daha sonra baş müəllim vəzifəsində çalışıb.

Müxtəlif illərdə "Neftçi" Peşəkar Futbol Klubu MMC-də Maliyyə şöbəsinin rəisi, "Alyans Tekstil" MMC-də direktor, "Capital Motors" MMC-də maliyyə direktorunun müavini və maliyyə direktoru vəzifələrində fəaliyyət göstərib. Bu dövrdə iri təşkilatlarda maliyyə intizamının qurulması, strateji planlaşdırma, xərclərin optimallaşdırılması, investisiya qərarlarının əsaslandırılması və institusional dayanıqlığın təmin edilməsi istiqamətində mühüm nəticələr əldə edib.

Sonrakı mərhələdə 2020-2022-ci illərdə "Təmiz qaz" QSC-də direktorun maliyyə məsələləri üzrə müşaviri, "AzGranata" MMC-də Maliyyə departamentinin rəhbəri, eyni zamanda İdarə Heyəti sədrinin birinci müavini vəzifələrində çalışıb. Bu vəzifələrdə həm maliyyə, həm də icraedici idarəetmə funksiyalarını paralel şəkildə həyata keçirib, strateji qərarların qəbulu və iri kollektivlərin idarə olunması sahəsində təcrübəsini daha da genişləndirib.

2022-2025-ci illərdə Elm və Təhsil Nazirliyində Təhsilin iqtisadiyyatı şöbəsində əvvəlcə müdir müavini, daha sonra şöbə müdiri vəzifələrində çalışıb. Bu dövrdə dövlət təhsil siyasətinin iqtisadi əsaslarının formalaşdırılmasında, təhsil sistemində maliyyə mexanizmlərinin təkmilləşdirilməsində, resursların səmərəli bölgüsündə və strateji sənədlərin hazırlanmasında birbaşa iştirak edib.

2025-ci ilin sentyabr-dekabr aylarında Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri vəzifəsini icra edib. Bu vəzifədə təhsilin inkişafı üçün innovativ və alternativ maliyyə alətlərinin tətbiqi, layihə əsaslı yanaşmaların təşviqi və dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin genişləndirilməsi istiqamətində təşəbbüslərə rəhbərlik edib.

## Rəsul Quliyev Bilgəhdəki torpağını 5 milyona satdı

***Sabiq spiker Rəsul Quliyev Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Zağulba şosesində yerləşən torpaq sahəsini satıb.***

"Unikal" xəbər verir ki, torpaq sahəsi 5 milyon manata alınıb. Satış əməliyyatı bu ayın əvvəlində baş tutub.

Xatırladaq ki, sözügedən ünvandakı torpaq sahəsi və Rəsul Quliyevə məxsus digər əmlaklarla bağlı uzun müddət sabiq deputat, Şeyxülislam Allahşükür Paşazadənin qardaşı Qalib Salahzadə ilə məhkəmə çəkişməsi aparılıb. Həmin məhkəmə prosesi səbəbindən Rəsul Quliyev torpaq sahəsini uzun müddət sata bilmirdi.

Onu da qeyd edək ki, Rəsul Quliyev 1996-cı ildən ABŞ-də yaşayır. Onun ailə üzvləri 30 ildən sonra oktyabrın sonlarında Bakıya gəliblər. Bu barədə Rəsul Quliyevin qızı Xanım Hənna sosial şəbəkə hesabında paylaşım edib. (Teleqraf)

# Ramiz Mehdiyevin daha bir kadrına məhbəs şoku

## İslam Rzayev nələrdə ittiham olunur? - Keçmiş icra başçısına dair sensasiyalı iddialarla bağlı səssizlik!

***Yola salmaq üzrə olduğumuz həftə Dövlət Təhlükəsizlik Xidməti (DTX) Balakənin sabiq icra başçısı İslam Rzayevin həbsi ilə bağlı rəsmi məlumat və görüntülər yayıb. Məlumatda bildirilir ki, DTX tərəfindən keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri zamanı Balakən Rayon İcra Hakimiyyətinin başçısı olmuş Rzayev İslam Vahid oğlunun həmin vəzifədə işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə, ona etibar edilmiş külli miqdarda özgə əmlakını mənimsəməsinə və çoxsaylı korrupsiya cinayətlərinə yol verməsinə əsaslı şübhələr yaranıb.***



Müəyyən olunub ki, İslam Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində fəaliyyət göstərdiyi dövrdə dövlət büdcəsindən işsiz və aztəminatlı şəxslərə, rayon ərazisində təmir-tikinti və abadlıq-quruculuq işlərinə ayrılmış maliyyə vəsaitlərini vəzifə səlahiyyətlərindən sui-istifadə edərək mənimsəyib, həmin vəsaitlərin təyinatı üzrə xərclənməsini təşkil etməyib, eləcə də vəzifəli şəxslərdən və iş adamlarından rüşvət alıb.

Faktla bağlı DTX-nin İstintaq baş idarəsində başlanılmış cinayət işi üzrə İslam Rzayev saxlanılaraq Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə məsuliyyətə cəlb olunub, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bu arada mediada Rzayevin əməllərinə dair yeni faktlar tirajlanır. Məsələn, Balakən sakinlərindən biri "Metbuat.az"a açıqlamasında deyib ki, 14 il icra başçısı vəzifəsində çalışan İslam Rzayev özünü dövlət qulluqçusu deyil, rayonun ağası kimi aparırmış. Tabeliyində çalışan şəxslərlə kobud rəftar onun xarakteri üçün vazkeçilməz xüsusiyyət olub.

Məlumatlara görə, İslam Rzayev təkcə icra hakimiyyətinin əməkdaşlarına deyil, hətta ona tabe olmayan vəzifəli şəxslərə də qanunsuz göstərişlər verirmiş. O, regional təhsil idarəsinin müdiri, baş həkim, maliyyə idarəsinin rəisi, sosial təminat şöbəsinin sədri və digər vəzifəli şəxsləri həmişə təzyiq altında saxlayıb. Balakəndə müxtəlif dövlət qurumlarına rəhbərlik edən məmurları tez-tez kabinetinə çağırıb məzəmmət etmək Rzayevin sevimli məşğuliyyətlərindən biri olub. Balakənlilər onun dilindən "Bakıdakıları yaddan çıxarın, sizin ağanız mənəm" sözlərini tez-tez eşidirmiş. Onun razılığı olmadan rayonun heç bir xəstəxanasına baş həkim, heç bir məktəbə direktor təyin edilmirmiş. Hətta seçkili qurum olan bələdiyyələr də icra başçısının öz "üsulları" ilə formalaşırmış.

Balakəndə idarə və təşkilat rəhbəri olan bəzi məmurların bu münasibətdən narazı qaldığı üçün Rzayevdən tez-tez mərkəzə şikayət etdiyi bildirilir.

İslam Rzayev son iki ildə haqqında ən çox şikayət edilən icra başçılarından biri olub.

Xatırladaq ki, Balakənin sabiq icra başçısının saxlanılması və barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilməsi barədə ilk məlumat bu ilin oktyabrında yayılmışdı.Həmin məlumatın ardınca isə İ.Rzayevlə bağlı sensasiyalı iddialar irəli sürülmüşdü. Sözügedən iddialara görə, onun 2011-ci ildə icra başçısı vəzifəsinə təyin olunmasının arxasında SOCAR-ın sabiq vitse-prezidenti, milyardlarla vəsaitə sahib oliqarx-məmur Mikayıl İsmayılov dayanıb. "Məlumata görə, Mikayıl İsmayılov İslam Rzayevin tələbə yoldaşı və eyni zamanda "qudası"dır. Məhz bu qohumluq və şəxsi əlaqə vasitəsilə Ramiz Mehdiyevlə birbaşa əlaqə qurulub və Rzayevin Balakənə icra başçısı kimi təqdimatı həyata keçirilib. Bu təyinat həmin dövrdə Mehdiyev klanının ölkə üzrə regional idarəçilik mexanizmlərində öz təsir dairəsini qorumaq üçün həyata keçirdiyi mühüm addımlardan biri sayılır" - "Musavat.com" belə yazıb.

Həmçinin bildirilib ki, mənbələrə görə, İsmayılov təkcə Rzayevin deyil, Mehdiyev klanına mənsub digər məmurların da vəzifəyə gətirilməsində rol oynayıb. O, uzun illər ərzində SOCAR vasitəsilə əldə etdiyi nəhəng maliyyə resurslarını bu inzibati şəbəkənin qorunması üçün istifadə edib. Sitat: "Hüquq-mühafizə orqanlarının son əməliyyatları Ramiz Mehdiyevin təsir dairəsindəki şəxslərin kənarlaşdırılması və dövlət strukturlarında gizli idarəetmə sisteminin dağıdılması məqsədi daşıyır. Analitiklər hesab edirlər ki, İslam Rzayevin həbsi və Mikayıl İsmayılovun adı bu prosesdə həlledici mərhələni açır. Bu proses artıq yalnız Mehdiyev klanının deyil, onun iqtisadi dayaqlarını formalaşdıran şəxslərin də hədəfə alındığını göstərir".

Maraqlıdır ki, sözügedən iddiaların yayılmasının üzərindən həftələr keçməsinə baxmayaraq qarşı tərəfdən hər hansı təkzib gəlməyib. Bu isə deyilənlərdə həqiqət payının kifayət qədər yüksək olduğunu düşünmək üçün ciddi əsaslar yaradır.

Onu da deyək ki, İ.Rzayevin həbsinin ardından onun Ramiz Mehdiyevlə qonşu olduğuna dair də xəbərlər yayılmışdı. Məlum olub ki, Balakənin sabiq icra başçısı doğulduğu Göyçay rayonunda, Hüngütlü kəndində özünə dəbdəbəli ev tikdirib. Həmin kənddə Ramiz Mehdiyevin də əzəmətli villası var. Bu villanın ona keçmiş nəqliyyat naziri Ziya Məmmədovun hədiyyə etdiyi bildirilir.

Və belə görünür, villa qonşuları indi "tale qonşuları"na çevrilib - biri ev dustaqlığına, digəri isə həbsə məhkum olaraq...

***Sənan Mirzə***

# Mehdiyevlərin bankı ilə bağlı müəmma

## "Boz kardinal"ın daha bir biznesi onun əlindən çıxa bilər - ən çox ondan şikayət edilib, üstəlik, yarım milyon manatdan çox zərərdədir

***Azərbaycan Mərkəzi Bank (AMB) bank xidmətləri bazarında müştəri məmnuniyyətini şikayət indeksi əsasında qiymətləndirib. Nəticədə, bu ilin noyabr ayında Azərbaycanda barəsində ən çox şikayət edilən bank "Bank BTB" ASC olub. Bu bankda şikayət indeksi 5.11-dir.***

Növbəti yerləri "Yelo Bank" ASC (2.88) və "Unibank" ASC (2.34) bölüşür.

Ən az şikayət olunan bank 0.31 indekslə "Paşa Bank" ASC-dir. Bu sırada "Bank Respublika" ASC 0.68 indekslə ikincidir.

Cədvəldə yer almayan banklar üzrə ay ərzində AMB-yə şikayət daxil olmayıb.





Şikayət indeksi bankın müştərilərinə təqdim etdiyi xidmətlərin həcmi və əhatə dairəsini nəzərə alaraq, müştəri bazasına nisbətən daxil olan şikayətlərin proporsionallığı əsasında hesablanır.

Şikayət indeksi hər bir bank üzrə şikayətlər üzrə bazar payının müştərilər üzrə bazar payına bölünməsi yolu ilə hesablanır. Bu göstərici vətəndaşların bank seçimi zamanı məlumatlı qərar verməsinə kömək məqsədi daşıyır və aylıq əsasda dəyişə bilər.

Xatırladaq ki, ötən ay ən çox şikayətin edildiyi "Bank BTB" Ramiz Mehdiyevin ailə biznesinə daxildir. Belə ki, 2010-cu ildə yaradılan və nizamnamə kapitalı 71,45 milyon manat olan bu bankın səhmlərinin 76,74%-i Nigar Mehdiyevaya, 17,68%-i Rza Sadiqə (Müşahidə Şurasının sədri), 5,58%-i isə Tükəzban Mahmudovaya məxsusdur. Nigar Mehdiyeva Ramiz Mehdiyevin gəlinidir. Rza Sadiq onun qardaşıdır.

Məlumatlardan aydın olur ki, ailənin kapitalı hüquqi olaraq gəlində, faktiki idarəetmə isə quda xəttindən gələn Rza Sadiqin əlində cəmləşdirilib. İ.Sadiqov Nazirlər Kabinetində şöbə müdiri vəzifəsində də çalışıb.

Mehdiyevlərin bankı bu ilin yanvar-sentyabr aylarını 641 min manat zərərlə başa vurub. Maliyyə hesabatına əsasən, bu, ötən ilin eyni dövrünə nisbətən 30% çoxdur.

9 ay ərzində "Bank BTB"nin əməliyyat gəlirləri 30.12 milyon manat (illik müqayisədə 9.3% çox), əməliyyat xərcləri 25.724 milyon manat (8.4% çox), xüsusi ehtiyatlara ayırmaları 2.205 milyon manat (4.9 dəfə çox), gözlənilməz xərcləri isə 2.831 milyon manat (27% az) təşkil edib.

Bu il oktyabrın 1-nə "Bank BTB"nin aktivləri 389.268 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 5.7% çoxdur. Bunun 276.304 milyon manatı müştərilərə verilmiş xalis kreditlərdir. Son 1 ildə Bankın kredit portfeli 0.4% böyüyüb.

Hesabat dövründə "Bank BTB"nin öhdəlikləri 7% artaraq 338.413 milyon manat, o cümlədən depozit portfeli 11.9% artaraq 167.873 milyon manat, balans kapitalı isə 2.2% azalaraq 50.855 milyon manat olub.

Ramiz Mehdiyev ətrafında baş verən məlum hadisələr fonunda bankın cari ilin ilk 9 ayını yarım milyon manatdan çox zərərlə başa vurması, üstəlik, ən çox şikayət edilən banka çevrilməsi maraq doğurur. İstisna deyil ki, o, "boz kardinal"ın nəzarətindən çıxarılsın.

Xatırladaq ki, daha əvvəl Ramiz Mehdiyevin kürəkəni İlham Əliyevə məxsus "German Hospital"ın bağlanacağı yönündə xəbər yayılıb. Bildirilib ki, son vaxtlar hospitalın fəaliyyəti ciddi şəkildə zəifləyib. Bəzi həkimlər və əməkdaşlar işdən çıxarılıb, bir neçə şöbə isə faktiki olaraq xidmət göstərmir. Vurğulanır ki, klinikanın adı son vaxtlar istintaqla əlaqədar materiallarda da hallanıb. Mehdiyevin kürəkəni İlham Əliyevin biznes fəaliyyətinin araşdırıldığı, onunla bağlı maliyyə əməliyyatlarının yoxlanıldığı iddia edilir. Bütün bunların fonunda "German Hospital"ın bağlanması qərarının siyasi və iqtisadi səbəblərlə bağlı olduğu ehtimal olunur. Hospitalın rəsmi saytında (germanhospital.az) və sosial şəbəkə səhifələrində bağlanma ilə bağlı heç bir məlumat yerləşdirilməyib. Lakin artıq bəzi əlaqə nömrələrinin cavab vermədiyi, həkimlərin başqa klinikalara keçdiyi bildirilir.

"German Hospital"la eyni aqibəti Mehdiyevlərin digər biznes strukturlarının da yaşaya biləcəyi proqnozlaşdırılır. Dövlət çevrilişinə cəhd və vətənə xəyanət ittihamları ilə istintaqa cəlb olunan "boz kardinal"ın cinayət işi genişləndikcə onun ailə biznesi ilə bağlı qaranlıq məqamların da aydınlığa çıxarılması tamamilə gözləniləndir.

Onu da deyək ki, "BTB Bank" istər özünün ən çox şikayət edilən bank olaraq açıqlanması, istərsə də "Mehdiyev işi çərçivəsi"ndə adının son vaxtlar ölkə mediasında kütləvi şəkildə hallanması barədə hələlik heç bir açıqlama verməyib. Halbuki bank sektoru həssas sahə olduğu üçün bu sahədə fəaliyyət göstərən subyektlərin özləri barədə iddialara dərhal reaksiya verməsi lazımdır.

**Toğrul Əliyev**

## Gülçöhrə Məmmədova "Şərəf" ordeni ilə təltif edildi



***Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova "Şərəf" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq Sərəncam imzalayıb.

Qeyd edək ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illiyi münasibətilə universitetin əməkdaşları təltif ediliblər.

## Adil Kərimli Nəriman Həsənzadəni xəstəxanada ziyarət etdi



***Mədəniyyət naziri Adil Kərimli Xalq şairi Nəriman Həsənzadəni xəstəxanada ziyarət edib.***

"Unikal" xəbər verir ki, bu barədə APA-ya Xalq şairinin köməkçisi Aref Mehmandost məlumat verib.

Qeyd edək ki, Nəriman Həsənzadə bir müddətdir Mərkəzi Klinik Xəstəxanada stasionar müalicə alır. Vəziyyəti ağır stabil olaraq qalır.

## Xarici vətəndaşlar üçün bəzi qoruq və muzeylərə giriş qiyməti dəyişir

***2026-cı il yanvarın 1-dən etibarən Dövlət Turizm Agentliyinin tabeliyindəki bəzi qoruq və muzeylərə xarici vətəndaşlar üçün giriş qiymətlərində dəyişikliklər olacaq.***



"Unikal" xəbər verir ki, bu barədə Qoruqları İdarəetmə Mərkəzi məlumat yayıb.

Bildirilib ki, 2026-cı il yanvarın 1-dən başlayaraq xarici ölkə vətəndaşlarına "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq, "Kiş" Tarix-Memarlıq (Alban məbədi) qoruqlarına, "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun Şəki xan sarayına, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun balansındakı "Diri Baba" türbəsinə giriş qiyməti 15 manat təşkil edəcək.

Qeyd edək ki, xarici ölkə vətəndaşları üçün güzəşt kateqoriyasına aid kombinə olunmuş biletlər də mövcuddur. "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət üçün nəzərdə tutulmuş kombinə edilmiş bilet 25 manat təşkil edir. "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq qoruqlarını və Palçıq Vulkanları Turizm Kompleksini ziyarət üçün nəzərdə tutulmuş kombinə edilmiş bilet 35 manatdır. Kombinə olunmuş biletlər yalnız bir nəfər üçün nəzərdə tutulub və ilk istifadədən sonra 72 saat müddətində yararlıdır.

Azərbaycan Respublikasının vətəndaşları üçün qoruq və muzeylərə giriş qiymətində hər hansı dəyişiklik yoxdur.

Xatırladaq ki, Azərbaycan Respublikası vətəndaşlarından əlilliyi olan şəxslər, azyaşlı uşaqlar və məktəblilər, müharibə veteranları, qazilər və onların birinci dərəcəli ailə üzvləri, şəhidlərin birinci dərəcəli ailə üzvləri üçün qoruq və muzeylərə giriş ödənişsizdir. Xarici ölkə vətəndaşlarının 12 yaşınadək uşaqlarına da giriş ödənişsizdir.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:41 PM Page 11



# Məhkəmə 1 milyon manat mənimsəyən avtosalon rəhbərlərinə ağır cəza verdi



***Bakıda 14 nəfərə qarşı bir milyon manatlıq dələduzluq etməkdə ittiham olunan avtosalon rəhbərləri Fərid Cəlalov və Kamil Habillinin cinayət işi üzrə məhkəmə araşdırması yekunlaşıb.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Fərid Namazovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Kamil Habilli və Fərid Cəlalov hər birinin 7 il 11 ay 28 gün müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, dövlət ittihamçısı ötən prosesdə hər iki təqsirləndirilənin 9 il müddətinə azadlıqdan məhrum edilməsini tələb etmişdi.

Xatırladaq ki, cinayət işi üzrə 14 nəfər zərərçəkmiş şəxs qismində tanınıb və onlara ümumilikdə təxminən 1 milyon manat məbləğində maddi ziyan dəydiyi müəyyən edilib. İstintaq materiallarına əsasən, təqsirləndirilənlər avtomobil satışı adı ilə vətəndaşların pullarını mənimsəməkdə ittiham olunurlar.

***Seymur Əli***

# Tullantı suları üzrə 3 yeni dövlət standartı qəbul edilib

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi nəzdində fəaliyyət göstərən "Su ehtiyatları və meliorasiya sahəsi"nin Standartlaşdırılması üzrə Texniki Komitənin (AZSTAND/TK 48) konsensus qərarı ilə tullantı suları üzrə 3 yeni dövlət standartı hazırlanıb, Azərbaycan Respublikasının Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən təsdiq edilib.***

Bu barədə "Unikal"a İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti Mətbuat Xidmətindən məlumat verilib.

Qəbul edilən dövlət standartları aşağıdakılardır:

* AZS 983:2025- "Təmizlənmiş tullantı sularının təkrar istifadəsi üzrə tələblər";

* AZS 984:2025- "Tullantı sularının su və su təsərrüfatı obyektlərinə axıdılması üzrə tələblər";

* AZS 985:2025- "Sənaye müəssisələri, ictimai iaşə obyektləri və fərdi xidmət sahələrinin istehlakçıları tərəfindən mərkəzləşdirilmiş kanalizasiya sisteminə axıdılan tullantı sularında zərərli və çirkləndirici maddələrin miqdarına və tərkibinə nəzarət".

Yeni dövlət standartlarının tətbiqi su ehtiyatlarının təhlükəsiz və səmərəli idarə olunmasına, tullantı sularının təkrar istifadəsinin tənzimlənməsinə, su obyektlərinə axıdılan tullantı sularının ekoloji və sanitar-gigiyenik təhlükəsizliyinin təmin edilməsinə, eləcə də mərkəzləşdirilmiş kanalizasiya sisteminə daxil olan tullantı sularının tərkibinə nəzarətin gücləndirilməsinə xidmət edəcək. Qeyd edək ki, təsdiq edilmiş dövlət standartları Azərbaycan Respublikasının Standartlaşdırma İnstitutu tərəfindən Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

# Azərbaycanda 6 faydalı qazıntı yatağı hərraca çıxarılacaq

***Yanvarın 29-da İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi ilə birlikdə faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə növbəti dəfə hərrac keçirəcək.***

"Unikal" bu barədə Dövlət Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, hərracda Göyçay rayonu "Göyçay" (3 ha), Ağsu rayonu "Ağsuçay" (6 ha), İmişli rayonu "Bəhrəmtəpə II" (10.9 ha) qum-çınqıl, Ağdam rayonu "Şelli" (3 ha) və "Burundağ" (2 ha) mərmərləşmiş əhəngdaşı və Sumqayıt şəhərində "Sumqayıt" (2.57 ha) gil yataqları investorlara təklif olunacaq.

İddiaçılar hərracda iştirakla bağlı sənədləri 22 yanvar 2026-ci il saat 18:00-a qədər "Bakı KOB evi"nə (Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə) təqdim edə bilərlər.

Əsas şərtlər toplusunu əldə etmək və hərracda iştirak üçün iddiaçılar hərrac haqqında elanda qeyd olunan məbləğdə xidmət haqqını və behi ödəməlidirlər. Hərracda xarici ölkələrin hüquqi və fiziki şəxsləri də iştirak edə bilərlər. Hərrac Əmlak Xidmətləri Məkanında keçiriləcəkdir.

Elan ilə Hərracların Təşkili Mərkəzinin rəsmi saytına (auksion.gov.az) daxil olub tanış olmaq olar.

# Faizdən faiz tutulması qanunaziddir - Ali Məhkəmədən qərar

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası borca görə gecikdirmə faizlərinin hesablanması ilə bağlı vahid məhkəmə təcrübəsini formalaşdıran qərar qəbul edib.***



"Unikal" xəbər verir ki, məhkəmə mübahisəsi iddiaçının cavabdehdən pul borcunun vaxtında qaytarılmaması səbəbindən əlavə gecikdirmə faizlərinin tutulması tələbi ilə bağlı olub. Belə ki, iddiaçı daha əvvəl məhkəmə qərarları ilə tutulmuş əsas borc və faiz məbləğlərini birləşdirərək, həmin ümumi məbləğ üzərindən yenidən gecikdirmə faizi hesablanmasını tələb edib.

Birinci instansiya məhkəməsi iddianı rədd edib, apellyasiya məhkəməsi də həmin mövqe ilə razılaşıb, daha sonra hər iki tərəfin kassasiya şikayətləri üzrə işə Ali Məhkəmədə kassasiya qaydasında baxılıb.

Ali Məhkəmə qərarında vurğulayıb ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7 və 449-cu maddələrinin məzmununa görə gecikdirmə faizləri yalnız ödənilməmiş əsas borc məbləği üzrə və yalnız borcun qaytarıldığı günədək hesablanmalıdır. Daha əvvəl məhkəmə qərarı ilə tutulmuş faiz borcunun əsas borca əlavə edilərək həmin ümumi məbləğ üzərindən yenidən gecikdirmə faizinin hesablanması "faizdən faiz" tutulması ilə nəticələnir ki, bu da qanunvericiliklə qadağan edilir.

Ali Məhkəmə qeyd edib ki, faiz borcunun məhkəmə qərarı ilə tutulması onun hüquqi mahiyyətini dəyişmir və onu əsas borca çevirmir. Belə faiz alacağına yenidən faiz tələb edilməsi borclunun vəziyyətini qeyri-mütənasib şəkildə ağırlaşdırır və ədalət prinsipinə ziddir.

Ali Məhkəmə həmçinin bildirib ki, kassasiya instansiyasının səlahiyyəti iş üzrə faktiki halları yenidən araşdırmaq deyil, aşağı instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmadığını yoxlamaqdan ibarətdir. Bu baxımdan apellyasiya instansiyasının sübutlara verdiyi hüquqi qiymət və gəldiyi nəticə əsaslı hesab edilib.

Nəticə etibarilə, Ali Məhkəmə kassasiya şikayətlərini təmin etməyərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsini dəyişdirilmədən qüvvədə saxlayıb.

# Keçmiş məcburi köçkünlər mina təhlükəsi ilə bağlı maarifləndirildi

***Məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri onların sosial müdafiəsinin səmərəli təşkilidir. Həmçinin, Prezident İlham Əliyevin tapşırığına əsasən, doğma yurda geri dönən keçmiş məcburi köçkünlərin rahatlığının və təhlükəsizliyinin təmin edilməsi prioritet məsələlərdəndir.***

"Unikal" xəbər verir ki, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanununda keçmiş məcburi köçkünlər üçün bir sıra sosial müdafiə tədbirləri nəzərdə tutulur. Bunlardan biri də sosial müdafiəyə ehtiyacı olan məcburi köçkünlərin yararlandığı, dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vahid aylıq müavinətdir.




Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən doğma yurduna qayıtmağa hazırlaşan və işğaldan azad edilmiş ərazilərə yeni salınmış yaşayış məntəqələrində məskunlaşan əhali arasında aparılan məlumatlandırma, təbliğat-izahat və maarifləndirmə işləri çərçivəsində onlara sosial müdafiə tədbirləri, o cümlədən vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan başaçatma müddətləri, müddətin axımı, habelə bunun qanuniliyi və zəruriliyi məsələlərində ətraflı izah edilir. Dövlət Komitəsinin Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, maarifləndirmə və təbliğat işləri çərçivəsində mina təhlükəsi ilə bağlı hazırladığı videoçarx insanları ayıq-sayıq olmağa, xəbərdarlıq nişanlarının tələblərinə əməl etməyə çağırır. İşğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı hərbi sursatlarla bağlı təhlükənin aradan qaldırılması üçün ərazilərdə müvafiq təmizləmə işləri aparılmaqla yanaşı, əhalinin maarifləndirilməsi də həyata keçirilir.

Bununla əlaqədar olaraq, növbəti tədbir Ağdam şəhərinə və rayonun Xıdırlı, Xocalının Seyidbəyli, Badara, Ağdərənin Kolatağ, Vəngli və Həsənriz kəndlərinə köçürülən ailələr arasında keçirilib. Dövlət Komitəsində keçirilən tədbirdə məcburi köçkünlərlə sosial müdafiəsi məsələləri və vahid aylıq müavinətin daimi yaşayış yerinə geri qayıtmış şəxslərin üç il müddəti başa çatdıqdan sonra dayandırılacağı və mina təhlükəsi haqqında hazırlanmış videoçarxlar məcburi köçkünlər üçün nümayiş etdirilib. Qeyd edilən video çarxlar, mediada mütəmadi olaraq yayımlanır. Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Dövlət Komitəsi tədbirlər planına uyğun olaraq aidiyyəti şöbə, yerli nümayəndəliklər və Mənzil-Kommunal İstismar Sahələri tərəfindən məcburi köçkünlərlə mütəmadi olaraq qanunvericiliyin tələbləri barədə maarifləndirici görüşlər keçirilir, sosial müdafiə tədbirlərinə dair məlumat kitabçaları və broşürlər hazırlanaraq məcburi köçkünlərə təqdim olunur, videoçarxlar çəkilir.

## 5.3.9. azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Heydər Əliyevin azərbaycançılıq ideyası milli birliyin sarsılmaz sütunudur

### 44 günlük Vətən müharibəsində əldə edilən qələbə Heydər Əliyevin azərbaycançılıq ideyasına əsaslanan uzunmüddətli siyasətin məntiqi nəticəsidir



***Harada yaşamasından asılı olmayaraq damarından azərbaycanlı qanı axan hər kəs öz Vətənini sevməli, Azərbaycan xalqının bir hissəsi olmağı bacarmalıdır. Başqa sözlə desək, Azərbaycançılıq bir dəyər kimi hər bir azərbaycanlının həyat qayəsinə çevrilməlidir. Şübhəsiz ki, azərbaycançılıq ideyasından danışdıqda bu günlərdə anım gününü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev yada düşür. Heydər Əliyevin azərbaycançılıq ideyasının kökündə Azərbaycan dövlətinin möhkəmlənməsi, milli kimliyin qorunması və inkişaf etdirilməsi kimi dəyərlər dururdu. Bu ideya müstəqil dövlətin milli maraqlarını hər şeydən üstün tuturdu.***

Heydər Əliyevin azərbaycançılıq ideyası Azərbaycan dövlətinin və xalqının birlik və inkişaf fəlsəfəsidir. Heydər Əliyev dövlətin möhkəm olmasını, qanunun aliliyini və müstəqilliyin qorunmasını azərbaycançılığın əsas şərti hesab edirdi.

Heydər Əliyevin yaratdığı Azərbaycançılıq ideologiyası elə bir konsepsiya idi ki, bu konsepsiya Azərbaycandan kənarda yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşməsini, onların hüquq və azadlıqlarını qorumağı zəruri edirdi. Bu konsepsiya dövlətin xaricdə yaşayan azərbaycanlılar qarşısında vəzifələrini, mənəvi öhdəliklərini, eləcə də bütün azərbaycanlıların Azərbaycan dövləti qarşısında müqəddəs borcunu müəyyənləşdirərək, ölkənin inkişafı naminə vahid ideallar ətrafında səfərbər etməli idi. Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların taleyi haqqında hər zaman düşünürdü, onun hakimiyyətdə olduğu dövrlərdə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanunun qəbul edilməsi də buradan irəli gəlirdi.

Heç şübhəsiz ki, Azərbaycançılığın mərkəzində ana dilinin, milli mədəniyyətin, tarix və ənənələrin mühafizəsi və inkişafı dayanırdı. Heydər Əliyev bunu xalqın birliyinin əsas dayağı hesab edirdi. Ulu Öndər azərbaycançılığı həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılar arasında birlik yaratmaq ideyası kimi təqdim edirdi. O, dünyadakı bütün azərbaycanlıların milli düşüncə ətrafında birləşməsini vacib sayırdı. Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı strukturunu nəzərə alaraq, Heydər Əliyev azərbaycançılığı hamını birləşdirən və təbii tolerantlığa əsaslanan konsepsiya kimi formalaşdırmışdı. Bu, ölkə daxilində sabitliyin və qarşılıqlı hörmətin əsaslarından biri sayılırdı. Heydər Əliyevin fikrincə, azərbaycançılığın əsas sütunu dövlət müstəqilliyinin əbədi və dönməz olması idi. Bütün strateji qərarlar bu ideyanın qorunmasına xidmət etməli idi.

"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Ümummilli Liderin dillər əzbəri olan və Azərbaycan xalqının sloqanına çevrilən bu fikirlər bu gün də dillər əzbəridir.

Heydər Əliyevin milli ideyasında əsas yeri insan amili - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, dövlət dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu.

Ümummilli Lider qeyd edirdi ki, biz, öz dövlətini sevən, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacaran gənc nəsil yetişdirməliyik. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda, bəşəri dəyərləri mənimsəməlidir.

Heydər Əliyev müstəqillik dövründə Azərbaycanda tətbiq edilən milli ideologiyanın əhəmiyyətindən bəhs edərək, vurğulayırdı ki, "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Bu gün Prezident İlham Əliyevin uzaqgörən və praqmatik siyasəti, cəsarətli addımları, güclü liderlik keyfiyyətləri sayəsində Azərbaycan dövləti Ulu Öndərin müəyyənləşdirdiyi strateji vəzifələrin öhdəsindən uğurla gəlir və gələcəyə doğru inamla irəliləyir. Ölkəmizdə azərbaycançılıq ideologiyasının təbliği yüksək səviyyədə aparılır. Azərbaycançılıq ideologiyasının təbliği həm də vətənpərvərliyin inkişafı deməkdir. Məhz bu ideoloji təbliğat nəticəsində 44 günlük Vətən müharibəsində in ucqar kəndlərdə yaşayan gənclərimizdən tutmuş, mərkəzdə yaşayan gənclərimizə qədər hər kəs Vətən müharibəsinə tək bir amalla getdi. Bu ideologiyanın təsiri nəticəsində həssas məsələlərdə xalq olaraq bir yumruq olmağı bacardıq. Heydər Əliyevin azərbaycançılığı xüsusilə gənc nəsildə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini hədəfləyirdi.

44 günlük müharibənin döyüşçü nəsli məhz bu ideya əsasında formalaşdı və yüksək mənəvi ruh nümayiş etdirdi. Odur ki, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbə də məhz bu ideyanın məntiqi davamı və zirvəsi kimi dəyərləndirilə bilər. Azərbaycançılığın əsas elementlərindən biri də milli həmrəylikdir. Heydər Əliyev düşünürdü ki, xalqın birliyi olmadan güclü dövlət qurmaq mümkün deyil. 44 günlük müharibə zamanı ölkədə misilsiz milli birlik müşahidə edildi. Cəbhə ilə arxa cəbhə arasında sarsılmaz vəhdət yarandı, xaricdə yaşayan azərbaycanlılar da dövlətin haqq səsini dünyaya çatdırmaq üçün geniş fəaliyyət göstərdilər. Bu birlik xalqın həm mənəvi gücünü, həm də azərbaycançılıq ideyasının cəmiyyətin bütün təbəqələri tərəfindən qəbul edilməsini nümayiş etdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bu tarixi missiyanı yerinə yetirdi və ölkənin ərazi bütövlüyü bərpa olundu. Azərbaycançılıq ideyasının humanist və multikultural dəyərləri Azərbaycanın beynəlxalq aləmdə haqlı mövqeyini daha da gücləndirdi. 44 günlük müharibə zamanı Azərbaycan öz hüququnu beynəlxalq hüquq çərçivəsində bərpa etdi, bu isə azərbaycançılığın dünya ictimaiyyətinə təqdim etdiyi sülhpərvər və ədalətli dövlət imicinin davamı idi. Bütün bunlar göstərir ki, 44 günlük Vətən müharibəsində əldə edilən qələbə təsadüfi deyil, Heydər Əliyevin azərbaycançılıq ideyasına əsaslanan uzunmüddətli siyasətin məntiqi nəticəsidir. Bu ideya Azərbaycan xalqının milli birliyini, dövlətçilik ənənəsini və ərazi bütövlüyünə sadiqliyini təmin edən ən güclü milli ideologiyadır. Qələbə isə bu ideologiyanın tarixi təntənəsi kimi Azərbaycan xalqının yaddaşında əbədi qalacaq!

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ankarada Türk Dövlətlərinin Dezinformasiya ilə Mübarizə Forumu keçirilir

***Ankarada Türk Dövlətlərinin Dezinformasiya ilə Mübarizə Forumu keçirilir.***

Forumda Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası nümayəndə heyətləri iştirak edirlər.

Forumun əsas məqsədi türk dövlətləri arasında dayanıqlı və effektiv kommunikasiya mühitinin formalaşdırılması, həmçinin dezinformasiya təhdidlərinə qarşı mübarizə sahəsində institusional qarşılıqlı fəaliyyətin gücləndirilməsidir.

Tədbirdə dövlət orqanlarının, aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri və sahə üzrə ekspertlər iştirak edir. Azərbaycan tərəfini Media İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə iş və Kommunikasiya şöbəsinin Kommunikasiya Siyasəti sektorunun müdiri Cavid Musayev, həmin şöbənin Kütləvi İnformasiya vasitələri ilə əlaqələr sektorunun müdiri Kamran Qasımov, həmin şöbənin KİV ilə əlaqələr sektorunun baş məsləhətçisi Pərvanə İbrahimova, Media İnkişafı Agentliyinin icraçı direktor müavini Natiq Məmmədli, Trend BİA-nın direktor müavini və Baku Network Analitik Mərkəzinin rəhbəri Elçin Alıoğlu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin üzvü Cavid Vəliyev, eləcə də APA İnformasiya Agentliyinin Beynəlxalq Əlaqələr və Analitika Departamentinin rəhbəri Faiq Məmmədov təmsil edirlər.

Forum çərçivəsində dezinformasiyanın milli təhlükəsizliyə, ictimai rəylərə və regional sabitliyə təsiri, eləcə də müasir informasiya mühitində birgə fəaliyyətin praktik mexanizmləri müzakirə olunacaq. 2025-ci il üçün Türk Dövlətləri Təşkilatının informasiya sahəsində Fəaliyyət Planına uyğun olaraq forum media savadlılığı , informasiya təhlükəsizliyi, dezinformasiyaya qarşı mübarizə, rəqəmsal texnologiyalardan məsuliyyətli istifadə, beynəlxalq yayım və yeni nəsil jurnalistikası sahəsində bilik və təcrübə mübadiləsi platformasına çevriləcək.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:42 PM Page 13



## "Ermənistanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun əsası qoyulur" - İqtisadçı



***"Azərbaycan özü Aİ-95 markalı benzinin bir hissəsini daxili tələbatı ödəmək üçün xaricdən idxal etdiyi halda, Ermənistana 22 vaqon Aİ-95 benzini göndərir. Amma bu klassik iqtisadi proses deyil, sülh gündəliyini möhkəmləndirən düşünülmüş siyasi addımdır və doğru addımdır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, miqyas baxımından söhbət böyük məbləğdən getmir:

"Bir vaqon təxminən 55-60 ton benzin deməkdir. Pula çevrildikdə 22 vaqon bir neçə milyon dollar edir. Bu, Azərbaycan iqtisadiyyatı üçün böyük pul deyil. Həm də bu hədiyyə deyil, satılır və pulu alınır. Əsas məsələ Ermənistanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun əsasının qoyulmasıdır və bu rolun zamanla artacağıdır. Bu isə sülhü praktik olaraq möhkəmləndirən amildir. Bu cür addımlar sərhəddə sülhün davamlı olmasına, sülh müqaviləsinin imzalanmasına xidmət edir".

## Türkiyəli tanınmış alim Azərbaycan Milli Kitabxanasının qonağı olub



***18 dekabr 2025-ci il tarixində Türkiyəli alim - Yıldız Texniki Universitetinin fəlsəfə kafedrasının professoru Caner Taslaman və ilahiyyatçı Elşad Miri Milli Kitabxananın qonağı olub.***

Qonaqları kitabxananın direktoru professor Kərim Tahirov qəbul edib. O, münasibətlərin mühüm forması olan mədəni əlaqələrin Azərbaycan ilə Türkiyə arasında orta əsrlər dövründən mövcud olduğunu, lakin sovet dönəmində bu əlaqələrin məlum səbəblər üzündən zəiflədiyini bildirərək bu gün türk dövlətləri ailəsinə daxil olan və türkdilli xalqların mənəvi birliyinə və yaxınlaşmasına böyük ehtiyac olduğunu diqqətə çatdırmışdır. Direktor mədəniyyətlərimiz arasındakı tarixi və mədəni-mənəvi körpülərin respublikamızın müstəqillik illərində sürətlə bərpa edilməsi haqda danışıb, mədəni əlaqələrimizin hər iki xalq arasında qarşılıqlı mənəvi zənginləşmə zərurətindən irəli gəldiyini söyləyib və bu mənada türkiyəli alimlərin bu elm məbədini ziyarət etməsinin və öz kitablarını kitabxanaya təqdim etməsinin xüsusilə əhəmiyyətli olduğunu bildirmişdir.

Prof. Dr. Caner Taslaman İstanbulda Elm, Fəlsəfə, Din Vəqfinin fəaliyyət göstərdiyini, əsas məqsədin cəmiyyətdə insanların elm, fəlsəfə və din sahəsində təhsil alaraq özlərini inkişaf etdirə, azad düşünə və cəmiyyətə töhfə verə biləcəyi bir mühiti təmin etmək olduğunu, bu sahədə akademik araşdırmalar vasitəsilə cəmiyyətə dəyər qatmağa, intellektual inkişafa töhfə verməyə və gələcəyi işıqlandırmağa çalışdıqlarını diqqətə çatdırıb.

O, Vəqfin elm, fəlsəfə və din sahələrində tədqiqatçılara dəstək olduğunu, mövcud və gələcək yerli və xarici tədqiqatları qiymətləndirərək müəllif hüquqları ilə qorunan və tərcümə edilmiş əsərləri dərc etdiyini, fəaliyyətlərini həyata keçirmək və daha geniş auditoriyaya çatdırmaq üçün görüşlər keçirdiklərini, seminarlar, kurslar vasitəsilə bədii fəaliyyətlərə və şəxsi inkişafa dəstək verdiklərini, sənədli filmlər, televiziya və radio proqramları hazırlayaraq həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yaydıqlarını, simpoziumlar, konfranslar və seminarlar təşkil etdiklərini diqqətə çatdırıb.

Qeyd edək ki, Prof. Dr. Caner Taslaman əsasən müasir elm-fəlsəfə-din münasibətlərinə dair xeyli kitabların müəllifidir və görüş zamanı alim müəllifi olduğu kitabları Milli Kitabxananın fonduna hədiyyə edib və qəbula görə kitabxananın rəhbərliyinə təşəkkürünü bildirib.

Professor Kərim Tahirov dəyərli hədiyyələrə görə qonağa təşəkkür edərək, kitabların kitabxananın fondunda öz layiqli yerini tutacağını söyləyib və "Azərbaycan Milli Kitabxanası" fotoalbomunu qonağa təqdim edib.

Sonra qonaqlar Milli Kitabxana ilə tanış olublar.

## AQTA-dan Yeni il hədiyyə qutuları ilə bağlı müraciət

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Yeni il hədiyyə qutularının satışının artması ilə əlaqədar istehlakçılara müraciət edib.***




AQTA-dan "Unikal"a daxil olan müraciətdə bildirilir ki, uşaqlar üçün şirniyyatla dolu hədiyyə qutuları yalnız mağaza, yarmarka və digər rəsmi satış yerlərindən alınmalıdır.

Qeyd olunub ki, bəzi hallarda qutunun üzərində göstərilən tarix içərisindəki məhsulların deyil, qablaşdırmanın tarixi olur.

Ona görə də istehlakçılara qutudakı məhsulların etiket məlumatlarına diqqət yetirməsi tövsiyə olunur.

Müraciətdə bildirilir ki, məhsulların üzərində istehsal tarixi, yararlılıq müddəti, adı, əmtəə nişanı, xalis çəkisi, qida dəyərliliyi, eləcə də istehsalçı müəssisənin adı və ünvanı aydın və oxunaqlı şəkildə göstərilməlidir.

Sadalananlarla yanaşı, hədiyyə qutularının qablaşdırılmasının deformasiyaya uğramasına, əzilməməsinə və korlanmamasına diqqət yetirilməlidir. Xüsusi saxlanma şəraiti tələb edən, müvafiq temperatur rejimi qorunmadıqda tez xarab olan yoqurtlar, kremli qənnadı məhsulları və kəsmik içlikli məmulatların bu cür qutulara yerləşdirilməsi məqsədəuyğun deyil.

## Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

***Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin paytaxtı Doha şəhərində BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasında iştirak edir.***




"Unikal" xəbər verir ki, tədbir çərçivəsində Baş prokuror BMT-nin Korrupsiyaya qarşı Mübarizə aparan hüquq mühafizə orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) Panel müzakirələrinə qatılıb. Şəbəkənin rəhbərliyi Azərbaycanın qurumun fəaliyyətinə verdiyi mühüm töhfəyə görə təşəkkür edib.

Baş prokuror çıxış edərək bildirib ki, ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində BMT və digər beynəlxalq təşkilatların layihələrinin aktiv iştirakçısı olmaqla xarici tərəfdaşlarla əməkdaşlığa mühüm əhəmiyyət verir. Qlobal Əməliyyat Şəbəkəsinin cari ilin may ayında Bakı şəhərində baş tutmuş 6-cı Plenar Sessiyası xüsusilə məhsuldar olub.

Belə ki, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin bir araya gəldiyi görüşlərdə təsisatın fəaliyyəti üçün təməl təşkil edən Şəbəkə üzvləri arasında məlumat mübadiləsinin Nümunəvi Razılaşması və Aparıcı Göstərişlər məhz Bakıdakı müzakirələr nəticəsində qəbul edilib. Bununla yanaşı, Assambleyanın Plenar iclasına paralel olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) və Yaşıl İqlim Fondunun birgə təşkilatçılığı ilə ətraf mühitin qorunması ilə bağlı müxtəlif məsuliyyət tədbirlərinə həsr edilmiş xüsusi sessiya keçirilib.

Sessiyada çıxış edən Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev ölkəmizin prokurorluq orqanları tərəfindən ətraf mühitin mühafizəsi ilə əlaqədar qanunvericiliyin tələblərinin pozulmasının qarşısının alınmasına yönəlmiş preventiv tədbirlər, eləcə də pozuntu hallarına görə tətbiq edilən məsuliyyət tədbirləri barədə geniş məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Assambleyanın Plenar iclasının növbəti günündə səsvermələr nəticəsində Assambleyası sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilmiş Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli sədrlik edib. Plenar sessiyada iştirakçı ölkələrin nümayəndə heyətlərinin korrupsiyaya qarşı mübarizə üzrə milli səviyyədə həyata keçirilmiş tədbirlərlə bağlı hesabat məruzələri dinlənilib.

Assambleya dekabr ayının 19-dək öz işini davam etdirəcəkdir.

## 2025-ci ilin 9 ayında Astarada demoqrafik vəziyyət haqqında statistika

***Astara rayonunda əhalinin sayı ilin əvvəlindən 622 nəfər və ya 0,6 faiz artaraq 2025-ci il oktyabr ayının 1-i vəziyyətinə 113437 nəfərə çatmışdır. Əhalinin 30,0 faizini şəhər, 70 faizini kənd sakinləri, 50,4 faizini kişilər, 49,6 faizini isə qadınlar təşkil edir.***

Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 2025-ci ilin doqquz ayında 1066 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 13,5-dən 12,6-ya düşmüşdür. Körpələrdən 20-i əkiz doğulmuşdur.

Doqquz ayda 464 ölüm halı qeydə alınmış və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 5,2-dən 5,5-ə qədər artmışdır.

Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 438 nikah və 135 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,5-dən 5,2-yə, boşanmaların sayı isə 1,3-dən 1,6-ya qədər artmışdır.

***Astara Rayon Statistika İdarəsi***

48_27 IYUl-QARA.qxd 12/18/2025 10:42 PM Page 14



# Azərbaycandan Ermənistana neft məhsullarının ilk partiyasını yola salır



***Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə uyğun olaraq dekabrın 18-də Azərbaycandan Ermənistana neft məhsullarının ixracına başlanacaq.***

"Unikal" xəbər verir ki, noyabrın 28-də Qəbələ şəhərində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın görüşündə əldə edilmiş razılaşmaya əsasən SOCAR tərəfindən istehsal edilmiş Aİ-95 markalı 22 vaqon benzin bu gün yola salınacaq.

Qeyd edək ki, Azərbaycan neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılacaq.

Dekabrın 8-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin yaydığı açıqlamada bildirilib ki, dekabrın 5-də Tbilisi tərəfdaşlarından Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Ermənistana birdəfəlik yanacaq tranzitinin reallaşdırılması üçün müraciət alıb: "Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin qərarı ilə Gürcüstan Dəmir Yollarına göstəriş verilib ki, dərhal birdəfəlik əsasda yüklərin dəmiryolu ilə tamamilə pulsuz daşınması həyata keçirilsin".

Bu, sülh gündəliyinin təkcə deklarativ xarakter daşımadığını, eyni zamanda praktiki müstəvidə gerçəkləşdirildiyini əyani şəkildə göstərir.

Azərbaycan neft məhsullarının Ermənistana ixracı sülh prosesinin iqtisadi dividendləri konsepsiyasını əks etdirir, iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin yaradılması istiqamətdə mühüm addımdır. Bu, həm də regionda iqtisadi-ticarət əlaqələrinin inkişafına, gələcək dövrdə region ölkələri arasında əlaqələrin genişlənməsinə töhfə verəcək. (APA)

# Rəşid Behbudova həsr olunmuş sərgi keçirilib

***Dekabrın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində əvəzolunmaz səsi və mahnıları ilə Azərbaycan musiqisini dünyaya tanıdan ölməz sənətkar Rəşid Behbudovun 110 illik yubileyinə həsr edilmiş "Səsin rəngi" sərgisinin açılış mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Rəşid Behbudov Fondunun təşkilatçılığı və Azərbaycan Beynəlxalq Bankının dəstəyi ilə keçirilən sərgidə Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və R.Behbudovun şəxsi kolleksiyasından seçilmiş sənət nümunələri yer alır.

Sərginin açılışında Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov, Əməkdar rəssam, ali dərəcəli bərpaçı Natiq Səfərov, Rəşid Behbudov Fondunun direktoru Kamil Şahverdiyev çıxış ediblər. Çıxışlar zamanı Rəşid Behbudovun özünəməxsus ifası və aktyorluq məharəti ilə milli musiqi və kino sənətimizə verdiyi dəyərli töhfələr, həmçinin Azərbaycan mədəniyyətini dünyada layiqincə tanıtması xüsusi qeyd olunub.

Tədbirdə Xalq rəssamı Asəf Cəfərovun 1975-ci ildə yaratdığı "Rəşid Behbudovun portreti" əsərinin hekayəsi haqqında qısa video nümayiş olunub. Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgidə nümayiş olunan eksponatlar Rəşid Behbudovun zəngin həyatı və parlaq yaradıcılıq yolunun mühüm məqamlarını işıqlandırır.



Ekspozisiyada sənətkarın layiq görüldüyü dövlət təltifləri və medalları ilə yanaşı, onun mənəvi dünyasının güzgüsü olan cib Quranı, 1952-ci ildə Moskva teatrı üçün hazırlanan 'Arşın mal alan' operettasının ssenarisi və deputatlıq fəaliyyətinə dair qeyd bloknotu ziyarətçilərə təqdim edilir. Sərginin ən təsirli nümunələri sırasında sənətkarın 1989-cu ildə Moskvada xəstəxanada qələmə aldığı son məktubu və ölməz 'Ey Vətən' mahnısının əlyazması yer alır. Təqdim olunan bu unikal sənədlər Rəşid Behbudovun sənətinə və Vətəninə olan sonsuz bağlılığının əyani təcəssümüdür.

Ekspozisiyada Azərbaycan təsviri sənətinin tanınmış nümayəndələri Nəcəfqulu İsmayılov, Ömər Eldarov, Tahir Salahov, İsa İbrahimov, Cümşüd İbrahimov, İsmayıl Məmmədov, Marqarita Əfəndi, Fuad Salayev, Altay Sadıqzadə, Elturan Avalov, Ülviyyə Həmzəyeva və digər rəssam və heykəltəraşların, eləcə də ABŞ, Rusiya, İran sənətkarlarının Rəşid Behbudovun fenomenal şəxsiyyəti və yaradıcılığını tərənnüm edən əsərləri nümayiş etdirilir.

Sərgidə Xalq rəssamı Asəf Cəfərovun 1975-ci ildə yaratdığı və vaxtilə Şuşa Rəsm Qalereyasının daimi ekspozisiyasında nümayiş etdirilən "Rəşid Behbudovun portreti"nin surəti təqdim olunur. 1992-ci ildə Şuşanın işğalı zamanı əsərin orijinalı digər mədəni irs nümunələri kimi qarət edildiyindən, sənətkarın 110 illik yubileyi münasibətilə portretin fotosu əsasında yeni surətin hazırlanmasına qərar verilib. Bu iş Əməkdar rəssam və ali dərəcəli bərpaçı Natiq Səfərov tərəfindən Azərbaycan Beynəlxalq Bankının dəstəyi ilə yüksək peşəkarlıqla həyata keçirilib.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun qazandığı böyük Zəfərdən sonra Şuşa Dövlət Rəsm Qalereyası bərpa edilərək yenidən fəaliyyətə başlamışdır. Bununla əlaqədar olaraq "Rəşid Behbudovun portreti" sənətkarın ailə üzvləri və Azərbaycan Beynəlxalq Bankının rəhbərliyi tərəfindən Mədəniyyət Nazirliyinə təqdim olunacaq və Şuşa Dövlət Rəsm Qalereyasında yenidən öz layiqli yerini tutacaq.

Rəşid Behbudov öz ecazkar səsi və unudulmaz mahnıları ilə hər zaman istedadlı rəssamlarımızı yeni əsərlər yaratmağa ilhamlandıracaq. "Səsin rəngi" sərgisi isə dünyaşöhrətli müğənninin yaradıcılığının əbədiliyini əks etdirən sənət ünvanı kimi daima yadda qalacaq.

Sərgi 31 dekabr 2025-ci il tarixinədək davam edəcək.



# Təhsilin İnkişafı Fonduna yeni direktor təyin edildi

***Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli Təhsilin İnkişafı Fonduna direktor təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə nazir Emin Əmrullayev əmr imzalayıb.

Qeyd edək ki, Nicat Məmmədli 1997-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin politologiya ixtisasını, 1999-cu ildə isə BDU-nun (Azərbaycanda siyasi proseslər ixtisası üzrə) magistraturasını fərqlənmə diplomu ilə bitirib. 2002-ci ildə BDU-nun dissertanturasına daxil olub. 2010-cu ildə ABŞ-nin Qərbi İllinoys Universitetinin magistraturasını ictimai siyasət ixtisası üzrə bitirib.

1999-2008-ci illərdə Bakı Dövlət Universitetinin Politologiya və sosiologoya kafedrasında, 2003-2006-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında müəllim işləyib.

2005-2007-ci illərdə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ) Baş Katibi olub. 2006-2007-ci illərdə ABŞ-nin Kolumbiya Universitetində sosial siyasət üzrə universitet müəllimlərinin təkmilləşdirilməsi proqramında iştirak edib. Həmin müddətdə ARGTMŞ-in BMT-nin Nyu-York qərargahındakı təmsilçisi olub.

Nicat Məmmədli 2007-ci ilin iyun-dekabr aylarında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkilinin (Ombudsman) aparatında uşaq hüquqları bölməsinin rəhbəri vəzifəsində çalışıb. 2008-2010-cu illərdə ABŞ-nin Qərbi İllinoys Universitetinin magistraturasında təhsil aldığı müddətdə həmin universitetdə müəllim assistenti işləyib.

2010-2013-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sosial infrastrukturun idarə edilməsi şöbəsində böyük mühəndis vəzifəsində çalışmış Nicat Məmmədli 2013-2018-ci illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərib.

Nicat Məmmədli 2018-ci ildən Elm və Təhsil Nazirliyində Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri, nazirin müşaviri kimi müxtəlif vəzifələrdə çalışıb.

İki monoqrafiya, 50-dən çox məqalə müəllifidir.

# Bu il Astarada təsərrüfatlardan 27 min tondan çox tərəvəz yığılıb

***Astara aqrar rayondur və iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Kənd təsərrüfatının gəlirli sahələrindən biri də tərəvəzçilikdir. Astara rayonu ənənəvi tərəvəzçilik rayonu olmuşdur. Rayonumuz uzun illər Sovetlər Respublikalarını tərəvəz məhsulları ilə təmin etmişdir.***

Tərəvəzçiliyin Astara rayonunda inkişafı ona görə diqqət mərkəzində olmuşdur ki, burada rayonun münbit torpaqları və iqlim şəraiti tərəvəzçiliyə həm uyğun gəlir və həm də tərəvəz məhsulları yüksək məhsuldarlığa malikdir və həm də ucuz başa gəlir.

2025-ci ildə rayonda 1819,3 hektar sahədə tərəvəz əkilmiş və həmin sahələrdən 27080,2 ton tərəvəz yığılmışdır. Məhsuldarlıq rayon üzrə hər hektardan 148,8 sentner olmuşdur.

Sahələrdən 104,0 ton kələm, 5856,1 ton xiyar, 7704,4 ton pomidor,1041,0 ton sarımsaq, 3992,0 ton baş soğan, 8382,7 ton sair tərəvəz məhsulu yığılmışdır.

***Astara Rayon Statistika İdarəsi***

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:44 PM Page 15





# "Putin müharibəni davam etdirə biləcəkmi?" - Zelenski

***Ukrayna lideri Volodimir Zelenski Rusiya prezidenti Vladimir Putinin "siqnallarının" Kiyev üçün "tamamilə yeni bir şey olmadığını" və münaqişənin nə qədər davam edəcəyinin yalnız Qərb tərəfdaşlarından asılı olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, onun sözlərini "UNİAN" yayıb.

"Əvvəla, Putinin siqnalları bizim üçün yeni bir şey deyil. Mən həmişə demişəm ki, o, müharibəni bitirmək istəmir. Sual budur ki, o, müharibəni davam etdirə biləcəkmi? Bu, tərəfdaşlarımızdan, onların təzyiqindən, ilk növbədə sanksiyalar vasitəsilə, həm də diplomatik təzyiq vasitəsilə asılıdır", - deyə Zelenski bildirib.

Eyni zamanda, o qeyd edib ki, "amerikalı həmkarları" dəfələrlə ictimai və özəl məkanlarda Rusiya prezidentinin münaqişənin sülh yolu ilə həllinə hazır olduğunu bildiriblər.

*Gülayə Mecid*

# Qarabağdan qaçan erməni general da Azərbaycanın siyahısında imiş



***"Azərbaycan tərəfinin təqdim etdiyi ilkin siyahıda "Artsax" Müdafiə Ordusunun komandanı Kamo Vardanyan da var idi".***

"Unikal" xəbər verir ki, bunu Qarabağda ləğv olunmuş separatçı rejimə rəhbərlik edən Samvel Şahramanyan deyib.

"Bu siyahı bizə yolun açılması və əhalinin qayıtması prosesini təşkil etmək tələbi kimi təqdim olunmuşdu", - deyə o qeyd edib.

Xatırladaq ki, K.Vardanyan 2021-ci ildə İkinci Qarabağ müharibəsindən sonra 44 günlük savaşın araşdırılması istiqamətində həbs olunan sabiq separaçtı "müdafiə naziri" Cəlal Arutyunyanın yerinə təyin olunmuşdu.

Erməni generalın 2023-cü ilin oktyabr ayında Həkəri çayı üzərindəki keçid məntəqəsində saxlanıldığı deyilsə də, onun Ermənistana qaça bildiyi məlum olub.

*Ağarza Elçinoğlu*

# Paşinyan yenidən Rusiyaya gedir



***Ermənistanın Baş naziri Nikol Paşinyan Sankt-Peterburqda keçiriləcək Ali Avrasiya İqtisadi Şurasının iclasında iştirak edəcək.***

"Unikal" xəbər verir ki, o, bu barədə jurnalistlərə açıqlamasında deyib.

Qeyd edək ki, dekabrın 21-22-də Sankt-Peterburqda MDB liderlərinin ənənəvi qeyri-rəsmi görüşü, eləcə də Ali Avrasiya İqtisadi Şurasının iclası keçiriləcək.

*Gülayə Mecid*

# "Qarabağ ermənilari qaçqın deyil" - Paşinyan

***"Gəlin Qarabağ ermənilərini qaçqın statusuna məhkum etməyək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan brifinq zamanı deyib.

"Məgər həmin insanlar harada olduqlarını, uşaqlarının harada yaşayacağını, ünvanının olub-olmadığını bilmirlər? Mən deyirəm ki, ünvan var. Həmin ünvan beynəlxalq səviyyədə tanınmış suveren ərazisi olan Ermənistan Respublikasıdır. Siz deyirsiniz ki, Qarabağ xalqını əbədi sürgün statusuna məhkum etməliyik. Mən erməni xalqını şəhidlik məntiqindən çıxarmağı öz missiyam hesab edirəm və biz buna bu gün çoxsaylı qurbanlar və fədakarlıqlar bahasına nail olmuşuq. Əziz qarabağlı bacı və qardaşlarım, siz Ermənistan Respublikasında məskunlaşmalı, Ermənistan vətəndaşlığını almalısınız. Çörək üçün köç etmək məntiqindən əl çəkməliyik", - deyə o qeyd edib.



Paşinyan Ermənistan hökumətinin niyə Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etmədiyini də açıqlayıb: "Bu, Ermənistan Respublikasını və erməni xalqını beynəlxalq siyasətdə və diplomatik oyunlarda əhəmiyyətsizləşdirməyin yoludur. Biz erməni xalqını şəhid və şəhid taleyinə məhkum edən yolu rədd edirik. Bu, başqalarının əlində oyun kartına çevrilmə yoludur".

*Ağarza Elçinoğlu*

# Tramp dünyanın ən güclü ordusunu açıqladı

***ABŞ Prezidenti Donald Tramp Amerika ordusunu dünyanın ən güclü ordusu adlandırıb.***

"Unikal" xəbər verir ki, onun sözlərini ABC telekanalı sitat gətirib. "İndi dünyanın ən güclü ordusu bizə məxsusduir, bu, danılmazdır. Mən Amerikanın gücünü bərpa etdim və 10 ay ərzində səkkiz müharibəyə son qoydum" - deyə o bildirib.



Ağ Ev rəhbərinin sözlərinə görə, bu dövrdə onun səyləri Qəzza zolağındakı müharibəyə son qoyub. Siyasətçi həmçinin hər iki tərəfdən girovların azad edilməsini təmin etdiyini qeyd edib. Amerika lideri həmçinin Milad bayramı ərəfəsində (25 dekabr) 1,45 milyon hərbçinin 1 776 dollar məbləğində hərbi mükafat alacağını açıqlayıb.

*Gülayə Mecid*

# Ukrayna Rusiyanın yük gəmisini vurdu - Ölənlər var

***Ukrayna Silahlı Qüvvələrinin Rostov limanına hücumu nəticəsində yük gəmisi yanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rostov vilayətinin qubernatoru Yuri Slyusar özünün "Telegram" kanalında yazıb.

Gəmidə olan iki heyət üzvü həlak olub, üç nəfər yaralanıb.

Limandan əlavə, Ukrayna Silahlı Qüvvələri şəhərin qərb hissəsindəki çoxmərtəbəli binaya zərbə endirmək üçün pilotsuz uçuş aparatlarından (PUA) istifadə edib. Təcili yardım xidmətlərinin məlumatına görə, heç kim xəsarət almayıb.

*Ağarza Elçinoğlu*



# Venesuela prezidenti Trampın əsl niyyətini açıqladı

***Venesuela prezidenti Nikolas Maduro Donald Trampın Cənubi Amerika ölkəsinə qarşı "əsl niyyətlərini" açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Maduro ABŞ-nin "neft, torpaq və digər aktivlərini" oğurladığını iddia edib. Ona görə, Trampın açıqlaması göstərir ki, ABŞ əslində rejim dəyişikliyinə, eləcə də Venesuelanın ərazisinə və resurslarına nəzarət etməyə çalışır.

ABŞ əvvəllər ölkə yaxınlığında dəniz qüvvələrinin toplanmasını narkotik qaçaqmalçılığına qarşı mübarizə məqsədi daşıdığını bildirib.

Venesuela lideri hesab edir ki, ABŞ-nin ölkəsindəki əsl məqsədi rejim dəyişikliyi, 47 saat davam etməyəcək,



Konstitusiyanı, suverenliyi və bütün sərvəti təhvil verəcək və Venesuelanı müstəmləkəyə çevirəcək "kukla hökumət" qurmaqdır.

Maduro son olaraq bildirib ki, "bu, sadəcə olaraq heç vaxt baş verməyəcək".

*Gülayə Mecid*

# İspaniyada polislə miqrantlar arasında toqquşma olub

***İspaniya polisi Badalona şəhərində təhsil müəssisəsində qanunsuz yaşayan miqrantlara qarşı reyd keçirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, əməliyyat zamanı iğtişaşlar baş verib, bina sakinləri hüquq-mühafizə orqanlarının əməkdaşlarına müxtəlif əşyalar atıblar

Kataloniya polisinin məlumatına görə, 17 miqrant qanunlarını pozduqlarına görə saxlanılıb.

48_27 IYUI-QARA.qxd 12/18/2025 10:44 PM Page 16



# Zəfər şəhidinin əziz xatirəsinə həsr olunan boks turniri keçirilib



***Vüsal Kazımov canına yağı dadanmış yurdumuzun azadlığı naminə özünü fəda etməklə şəhidlik zirvəsinə ucaldı.***

Beləcə 30 yaşında əbədi olaraq sevdalandığı Vətən adlı sevgilisinə qovuşdu. Vüsalın xatirəsini əziz tutmaq, məqamında onu anmağın özü də bir müqəddəslikdir. Bu baxımından Lənkəran rayon Cənub Regional Boks Mərkəzində Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin və Azərbaycan Boks Federasiyasının birgə təşkilatçılığı ilə 44 günlük haqq savaşımızda tarix yazan, qazanılan parlaq qələbəmizin qəhrəmanlıq simvoluna çevrilən zəfər şəhidi baş leytenant Vüsal Kazımovun xatirəsinə həsr olunan boks idman növü üzrə keçirilən ənənəvi V (beşinci) Lənkəran - Astara region turniri böyük maraqla qarşılanıb .

Yarışın açılış mərasimində Dövlət Himni oxunub və Vətən yolunda canlarını fəda edən qəhrəman oğulların əbədiyaşar xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə, Vüsal Kazımovun atası professor Kamran Kazımov, Azərbaycan Boks Federasiyasının nümayəndəsi beynəlxalq dərəcəli hakim Anar Nağıyev Vətən şəhidlərinin keçdiyi döyüş yolu və göstərdikləri misilsiz qəhrəmanlığı gənc nəsil üçün nümunə olduğunu, ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərin adının daim yaşaması, onların xatirəsinin əziz tutulması üçün gördüyü işlərdən, eləcə şəhid ailələrinə olan diqqət və qayğısından qürurla söz açıblar.

Natiqlər 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində parlaq qələbə çalaraq tarixi zəfərə imza atan, öz qanı bahasına torpağı Vətən edən şəhidlərin xatirəsini uca tutmaq, onları daim məhəbbətlə yad etmək hər bir vətəndaşın müqəddəs borcu olduğunu bildirərək, turnirə qatılan idmançılara uğurlar arzulayıb və yarışa start verilib.

Lənkəran, Astara, Masallı və Cəlilabad rayonlardan olan 48 dəri əlcək sahibi müxtəlif çəki dərəcələrində rinqə çıxıb. Baş hakim Nazim Qulamovun idarə etdiyi yarışda qələbə uğrunda inamla döyüşüb yüksək yerləri tutan idmançılar diplom və medallara layiq görülüblər.

Məlumat üçün bildirək ki, cənub mirvarisi Lənkəranın Yuxarı Nüvədi kəndində halal bir ziyalı ocağında boya-başa çatan, ata-ananın yeganə övladı olan Vüsal Kazımov iki ali təhsil alıb, bir müddət Lənkəran şəhər Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifəsində çalışıb. Həyatı dərk edən gündən xalqına, doğma Azərbaycana sevdalanan qeyrətli oğul İkinci Qarabağ müharibəsi başlanan günü ana Vətənin harayına könüllü olaraq birincilər sırasında səs verib. Baş leytenant əlində silah ən qaynar nöqtələrdə yağıya qarşı savaşıb. Misilsiz şücaət göstərməklə neçə-neçə odlardan, alovlardan zəfərlə çıxıb. Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhadətə yüksəlib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Vüsal Kazımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin, Füzulinin azadlığı uğrunda medalları ilə təltif edilib.

Vətən, torpaq naminə keçdiyi rəşadətli döyüş yolunun hər səhifəsi mərdliklə, eləcə heyrət və qürur doğuran məqamlarla dolu olan baş leytenant Vüsal Kazımov Nuray, Aynur adında iki qız övladını bizlərə yadigar qoyub. Atasının adına layiq boy atan qızların indi ən çox boylandığı yer Vətən səmasıdır. Axı orada parlayan ulduzlardan bir onların qəhrəman atasıdır...

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Həbib Nurməhəmmədovun yetirməsi diskvalifikasiya olundu

***Rusiyalı MMA döyüşçüsü Mövlid Xaybullayev Peşəkar Döyüş Liqasının (PFL) yarıyüngül çəki üzrə çempion titulundan məhrum edilib.***

"Unikal" xəbər verir ki, bu barədə qurumun mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, 35 yaşlı idmançının avqustun 1-də PFL-in Dünya Turniri Finalı zamanı götürülmüş analizində qadağan olunmuş maddə aşkarlanıb. Nəticədə Mövlid Xaybullayev bir il müddətinə, yəni 2026-cı ilin avqustuna qədər diskvalifikasiya olunub.

Qeyd edək ki, Xaybullayev Rusiyanın MMA əfsanəsi Həbib Nurməhəmmədovun yetirməsidir və karyerası ərzində 25 döyüşdən 24-də qələbə qazanıb.

# 92 yaşlı qadın eSports turnirində qalib gəldi

***Yaponiyada 92 yaşlı Hisako Sakai məşhur döyüş oyunu Tekken 8 üçün keçirilən eSports turnirində yüksək səviyyəli oyun və reaksiya müddəti nümayiş etdirərək qalib gəlib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, yarışda 73 ilə 95 yaş arasında olan səkkiz oyunçu təkbətək matçlarda mübarizə aparıb. Finalda Sakai 74 yaşlı Qoro Sugiyamanı məğlub edib. Turnir YouTube-da canlı yayımlanıb və peşəkar şərhçilər iştirak edib. Tədbirin təşkilatçısı olan Care eSports Assosiasiyası 2019-cu ildən bəri yaşlı oyunçular üçün turnirlər keçirir. Hazırda təşkilat Mie, Aiçi və Gifu prefekturalarında seçmə mərhələlərindən keçmiş iştirakçılar üçün ildə iki yarış keçirir.



# Şahruddin Almaniyada əməliyyat olundu

***Azərbaycan millisinin və "Qarabağ"ın qapıçısı Şahruddin Məhəmmədəliyev bu gün Almaniyanın Plattlinq şəhərində əməliyyat olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan millisinin rəsmi Feysbuk səhifəsi məlumat yayıb.

31 yaşlı qolkiper sol bud oynağından uğurlu əməliyyat keçirib.

Futbolçunun əməliyyat və müalicə xərcləri AFFA tərəfindən qarşılanıb.

# "Araz-Naxçıvan" U-19-u məğlub edib

***Futzal üzrə Azərbaycan Yüksək Liqasında IX turdan təxirə salınmış "Araz-Naxçıvan" - U-19 matçı keçirilib.***

"Unikal" xəbər verir ki, "Olimpik Star"da baş tutan görüş Naxçıvan təmsilçisinin 12:2 hesablı qələbəsi ilə başa çatıb.

Bu nəticədən sonra son ölkə çempionu qış fasiləsinə 25 xalla turnir cədvəlinin zirvəsində yollanıb. U-19 isə 6 xalla beşincidir.

Qeyd edək ki, futzal üzrə Azərbaycan Yüksək Liqasında III dövrəyə 2026-cı il yanvarın 19-da start veriləcək.

# "Barselona"nın futbolçusu və həyat yoldaşı qətlə yetirildi

***Ekvadorun "Barselona" klubunun müdafiəçisi Mario Pineyda silahlı hücum nəticəsində 34 yaşında həyatını itirib.***

"Unikal" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Baş verən insident zamanı futbolçunun həyat yoldaşı da həlak olub, anası isə xəsarət alıb.

Qeyd edək ki, Mario Pineyda 2016-cı ildən "Barselona"da çıxış edirdi. O, bu komandanın heyətində iki dəfə Ekvador çempionu olub, həmçinin ölkə kubokunu qazanıb. Futbolçu karyerası ərzində Ekvadorun "İndependyente del Valye", "Nasyonal", Braziliyanın isə "Fluminense" klublarının formasını geyinib.

# "Mançester Siti" yarımfinalda



***"Mançester Siti" İngiltərə Liqa Kubokunda yarımfinala yüksəlib.***

"Unikal" xəbər verir ki, "şəhərlilər" evdə "Brentford"la qarşılaşıb. Görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da komanda adını yarımfinala yazdırıb.

Daha əvvəl "Çelsi" 1/2 finala vəsiqə qazanıb.